www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 sentyabr 2015-ci il Çərşənbə № 215 (6243) Qiyməti 40 qəpik

**Xəbər**

## Sensasion iddia: "Məkkədə 4700-dək zəvvar ölüb"

yazısı səh.15-də

**Gündəm**

### Amerikadakı tarixi görüş gərgin "heç-heçə" ilə bitdi



İki saata yaxın çəkən Obama-Putin görüşü nə Suriya, nə də Ukrayna məsələsində uzlaşmaya gətirmədi; Rusiya liderinin "Suriya məsələsinə kömək əvəzinə sanksiya rejimini yumşaltmaq" taktikası da boşa çıxdı

yazısı səh.10-da

### Güney Qafqazla bağlı şok "Reyqan" planı - iddia

yazısı səh.9-da

### Avropa Azərbaycan neftindən imtina edə bilərmi?

yazısı səh.6-da

*Ekspertlər:*

### "Pirverdiyev hakimiyyət üçün bitib"

yazısı səh.11-də

### Prezidentin mesajlarına müxalifətdən və iqtidardan reaksiya

yazısı səh.6-da

### Bakıya qaçan erməni ailəsi tez-tez şəhər gəzintisinə çıxır

yazısı səh.15-də

### Müxalifətin seçki ittihamlarına YAP-dan cavab gəldi

yazısı səh.3-də

### Kipr universiteti kimsəsiz tələbəmizi nə üçün qovur?

yazısı səh.13-də

### MTN daha bir İŞİD-çini həbs etdi

yazısı səh.2-də

### Sevil Əliyevadan sərt qınaq

yazısı səh.13-də

### Cəbhədə atəşi necə kəsməli?

yazısı səh.3-də

### "Palmali"dən İŞİD ittihamına cavab gəldi

yazısı səh.13-də

## Okeanın o tayından dünyanı silkələyən mesajlar

# OBAMANIN ÇIXIŞININ GİZLİ KODLARI - HƏDƏFDƏ KİMLƏRDİR?

BMT-nin yubiley toplantısında Obama insan haqları və demokratiya məsələsindən kəskin danışdı: "Sən öz opponentlərini məhbus edə bilərsən, amma ideyaları məhbus etmək olmaz"; Putinin çıxışı dünyanın iki fərqli dünyagörüşünü bir daha ortaya qoydu; Bakıda verilən ilk rəsmi reaksiya ABŞ prezidentinə yönəldi: "Əgər Obama həqiqəti bilmək istəyirsə..."




yazısı səh.5-də

# Ziya Məmmədovun son payızı

Nəqliyyat nazirinin 28 may və 11 iyun fəlakəti haqda müdhiş məlumatlar; Anar Məmmədovun rəsmi qəbula dəvəti və "Atletlər kəndi"ndəki məlum avtobus qəzası Məmmədovların sonunu gətirdi; möcüzə baş verməsə...

yazısı səh.4-də



Altay Əfəndiyev

### Adı qalmaqalda hallanan Azərbaycanın İspaniyadakı səfiri "Yeni Müsavat"a danışdı

yazısı səh.7-də



### Hacı İbrahim pul dalınca Çinə gedir

yazısı səh.11-də



*İsa Qəmbər:*

### "Biz Obama deyəni demirik, Obama biz deyəni deyir"

yazısı səh. 8 və 9-da



## Koreya səfiri getdi

**Prezidenti İlham Əliyev sentyabrın 29-da Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Çoi Suk İni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib. Koreya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinə toxunan prezident İlham Əliyev Azərbaycanla Koreya arasında mövcud olan sıx əməkdaşlıq əlaqələrinin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib. Dövlətimizin başçısı səfirin Azərbaycan-Koreya ikitərəfli əlaqələrinin genişləndirilməsi işinə verdiyi töhfəni yüksək qiymətləndirib.**

## Parlamentin köhnə tərkibinin son sessiyası çağırıldı

**Sentyabrın 30-da Milli Məclisin payız sessiyası ilk plenar iclasla öz işinə başlayır. Parlamentdən verilən məlumata görə, ilk iclasın gündəliyinə 39 məsələnin müzakirəsi daxil edilib. İclasda müzakirə olunacaq məsələlər sırasına parlamentin 2015-ci il payız sessiyasının qanunvericilik işləri planının təsdiqi, Azərbaycanın bir sıra ölkələrlə imzaladığı sazişlərin təsdiqi, Cinayət, Torpaq, Mülki və İnzibati, Xətalar Məcəllələrinə, eləcə də "Diplomatik xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Fövqəladə hallar orqanlarında xidmət keçmə haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Torpaq bazarı", "Torpaq islahatı", "Yeyinti məhsulları haqqında", "Meliorasiya və irriqasiya haqqında", "Dövlət qulluğu haqqında", "Yol hərəkəti haqqında", "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" və daha bir neçə qanuna dəyişikliklər edilməsi daxildir.**

Milli Məclisin mətbuat katibi Akif Təvəkküloğlu "Yeni Müsavat"a bildirdi ki, bu, parlamentin hazırkı tərkibinin - Milli Məclisin IV çağırışının sonuncu sessiyasıdır. 2016-cı ilin büdcə müzakirələrini köhnə, yoxsa yeni tərkibin müzakirə edəcəyinə gəldikdə, A.Təvəkküloğlu qeyd etdi ki, 2 oktyabrdan etibarən Milli Məclisin İqtisadi və Sosial siyasət komitələri büdcə müzakirələrinə başlayacaq. Növbəti plenar iclas isə 13 oktyabra nəzərdə tutulub, əgər komitə iclasları yekunlaşarsa, o halda büdcə müzakirələrini hazırkı tərkib keçirə bilər.

❑ **ELŞAD**

## Şahbaz Xuduoğlu oğurlanan 13 min dollardan danışdı

**Şahbaz Xuduoğlu "Qanun" Nəşrlər Evində baş verən oğurluq hadisəsi ilə bağlı danışıb.Nəşriyyatın rəhbəri "Qafqazinfo"ya açıqlamasında bildirib ki, təhqiqat işləri davam edir: "Araşdırmalar aparılır, konkret kiminsə üzərində dayanılmayıb. Şübhəli bilinən şəxslər var. Biz də nəticəni gözləyirik. Ümid edirəm, məsələ müsbət həllini tapar".**

Xatırladaq ki, bir neçə gün öncə "Qanun" Nəşrlər Evində oğurluq hadisəsi baş verib və nəşriyyatın binasından içində 13 min dollar olan seyf aparılıb.

## Bakıda yağış yağacaq

**Sentyabrın 30-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Virtualaz.org Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinə istinadən bildirir ki, səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Havanın temperaturu gecə 17-20, gündüz 26-30 dərəcə isti olacaq.

Azərbaycan rayonlarında isə axşam və gecə dağlıq və dağətəyi rayonlarda şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-18, gündüz 26-31, dağlarda gecə 8-13, gündüz 18-23 dərəcə isti olacaq.

Tibbi meteoroloji proqnoza gəlincə, oktyabrın 2-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim təərddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Rusiya səfiri: "Qarabağda müharibə olmayacaq"

**Qarabağ münaqişəsini hərbi yolla həll etmək mümkün deyil. O, yalnız danışıqlar masası arxasında və yalnız sülh yolu ilə həll edilə bilər.**

Virtualaz.org erməni KİV-lərinə istinadən bildirir ki, bunu sentyabrın 29-da jurnalistlərlə görüşdə Rusiyanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri İvan Volınkin bildirib və əlavə edib ki, ATƏT-in Minsk Qrupunun və bütün dünya ictimaiyyətinin diqqəti buna yönəlib.

"Mən ümid edirəm ki, heç bir gərginlik olmayacaq", - İvan Volınkin vurğulayıb.

**Onun sözlərinə görə, təmas xəttində və sərhəddə baş verənlər dərin təəssüf doğurur:** "Həlak olan hərbçilərin ailələrinə dərin hüznlə başsağlığı verirəm".



**Ermənistan və Azərbaycan prezidentlərinin görüşünün keçirilməsinin mümkünlüyünə dair suala cavab verərkən, Rusiya səfiri deyib:** "Mövzunun iki nazirin Nyu-Yorkdakı görüşündə müzakirə olunduğunu düşünürəm. Amma təəssüf ki, nəticələri bilmirəm".

## Həcc ziyarətində vəfat edən azərbaycanlı zəvvar Məkkədə dəfn olunub

**Həcc ziyarətində dünyasını dəyişən azərbaycanlı zəvvar Əzizağa Şirinov Məkkədə dəfn olunub.**

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) zəvvarları müşayiət edən nümayəndəliyindən APA-ya bildiriblər ki, zəvvar torpağa tapşırılıb.

1936-cı il təvəllüdlü, Yardımlı rayon sakini Şirinov Əzizağa Məmmədqulu oğlu ötən gün günvurmadan dünyasını dəyişib.

Qeyd edək ki, Həcc ziyarəti zamanı daha iki azərbaycanlı dünyasını dəyişib.

## Kral Salmanı devirmək istəyirlər

**Səudiyyə Ərəbistanının kralı Salmanı hakimiyyətdən devirmək istəyənlərin olduğu iddia edilib.**

Musavat.com xəbər verir ki, bu barədə məlumat "Reuters" agentliyində yer alıb.

Səudiyyə Ərəbistanında bir şahzadə Həcc zamanı yaşanan faciədən sonra Kral Salmanın hakimiyyətində çevriliş etmək üçün çağırış edib.

Səudiyyə Ərəbistanının qurucularından Əbdüləziz İbn əl-Suudun nəvələrindən biri olan şahzadə hakim ailəyə məktub yazıb və liderliyin dəyişməli olduğunu bildirib.

Kral Salmanın taxta çıxdığı gündən bəri ölkədə ciddi narahatlıqlar olub.

Şahzadə "Kral heç bir şey etmir. Onun yerinə hakimiyyəti oğlu idarə edir" sözlərini məktubuna əlavə edib.

Şahzadə əmilərinin toplaşıb, kralın yerinə gələ biləcək yeni namizədi müzakirə edəcəklərini də bildirib.

## MTN Suriyada döyüşən Ağsu sakinini həbs etdi



**Suriyada döyüşlərdə iştirak etməkdə şübhəli bilinən şəxs həbs edilib. Ağsu rayon sakini, 1985-ci il təvəllüdlü Əhmədov Taleh Mahir oğlu Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində həbs olunub.**

Aparılan araşdırmalar zamanı onun 2014-cü ildə Suriyaya getdiyi və 3 ay orada qaldığı məlum olub.

Onun barəsində Cinayət Məcəlləsinin 279-cu (qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmə və ya qrup yaratma) maddəsinə əsasən cinayət işi başlanılıb və məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib. Hazırda faktla bağlı araşdırmalar davam etdirilir (APA).

## Ər arvadını öldürdü

**Gəncə şəhərində qətl hadisəsi törədilib. "Qafqazinfo" APA-ya istinadən xəbər verir ki, hadisə sentyabrın 29-da səhər saatlarında şəhərin 3-cü mikrorayonunda qeydə alınıb. Şəhər sakini, 1984-cü il təvəllüdlü Cəfərov Elxan Faiq oğlu ailə münaqişəsi zəminində həyat yoldaşı, 1984-cü il təvəllüdlü Bayramova Aytən Aydın qızını bıçaqlayaraq qətlə yetirib.**

Ailənin iki azyaşlı övladı var. Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda cinayət işi açılıb, araşdırma gedir.

## Daha 25 PKK-çı məhv edildi

**Türkiyə Silahlı Qüvvələri Baş Qərargahı keçirilən anti-terror əməliyyatları nəticəsində öldürülən PKK terrorçuları ilə bağlı yeni açıqlama yayıb. Açıqlamada bildirilir ki, keçirilən əməliyyatlarda İraqın şimalında 19, Türkiyənin Hakkari vilayətinin Çukurca rayonunda isə 6 terrorçu məhv edilib.**

Məlumatda qeyd olunub ki, Bitlis vilayətinin Güroymaq qəsəbəsində dəmir yolunda aşkarlanan partlayıcı qurğu zərərsizləşdirilib, dəmir yoluna ciddi ziyan dəyib, yol bağlanıb. Vilayətin Tatvan rayonunda isə bir şirkətin əməkdaşlarını daşıyan avtomobilə terrorçu hücumu baş verib. İki mülki şəxs xəsarət alıb (APA).

## Azərbaycan və Rusiya Xəzərdə birgə sərhəd təlimi keçirir

**Xəzər dənizinin Azərbaycana mənsub olan hissəsində Rusiya və Azərbaycanın birgə sərhəd təlimi keçirilir. Bu barədə "Report"a Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən məlumat verilib.**

Məlumata görə, təlimlər Rusiya Federasiyasının Sərhəd Xidmətinin sərhəd gözətçi gəmisinin və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin gəmilərinin iştirakı ilə gerçəkləşdirilir.

## Ermənistanın müdafiə naziri yenidən Qarabağda

**Ermənistanın müdafiə naziri Seyran Ohanyan yenidən işğal altındakı Qarabağa gəlib. Virtualaz.org erməni KİV-nə istinadən bildirir ki, S.Ohanyanın bu gün Qarabağ separatçılarının başçısı Bako Saakyan və "DQR" "ordusunun" komandanı Levon Mnastakanyanla görüşü nəzərdə tutulub.**

## Nazir Lənkəranda vətəndaşları qəbul etdi

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov sentyabrın 29-da Lənkəran Şəhər (Rayon) Polis Şöbəsində növbəti qəbul keçirib.**

Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı və Lerik şəhər və rayonlarının qəbul üçün müraciət edən sakinlərinin, həmçinin veteranların və şəhid ailələrinin bir qrupu ilə görüşən nazir onları narahat edən problemlərin qanunvericiliyə uyğun və operativ şəkildə həlli üçün konkret tapşırıqlar verib. Polis fəaliyyəti ilə bağlı olmayan müraciətlərin aidiyyəti qurumlara göndəriləcəyi diqqətə çatdırılıb. Ümumilikdə cənab Ramil Usubov tərəfindən 40 vətəndaş qəbul edilib.

Bununla yanaşı, kütləvi informasiya vasitələrində öncədən verilmiş elanlara uyğun olaraq, həmin şəhər və rayonlarda yaşayan, polisin sıravi və kiçik rəis heyəti vəzifələrində, Daxili Qoşunların sıralarında xidmət etmək istəyən 357 gənc də qəbulda iştirak edib. Onların arasından xidmətə daha hazırlıqlı olan 71 namizəd seçilərək sənədlərinin hazırlanması üçün aidiyyəti baş idarələrin rəhbərlərinə müvafiq göstəriş verilib. Nazir daxili işlər orqanlarında xidmətə qəbul üçün seçilmiş namizədlərə tövsiyələrini verib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

## Akif Nağının deputatlığa namizədliyi təsdiqləndi

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağının deputatlığa namizədliyi qeydə alınıb. Bu barədə QAT-ın mətbuat xidmətindən aldığımız məlumatda deyilir.**

Xəbərdə bildirilir ki, 9 saylı Binəqədi 2-ci seçki dairəsinin 19 saylı protokoluna əsasən QAT sədri Akif Nağının bu il noyabrın 1-də keçiriləcək parlament seçkiləri üçün deputatlığa namizədliyi qeydə alınıb.

A.Nağı bundan öncə onun namizədliyinə maneçilik törədənlərə sərt şəkildə mesaj verərək, "saxtakarlıq edənlər bizi qarşısında görəcək" demişdi.

Qeyd edək ki, QAT sədrinin seçki qərargahı 6-cı mkr., S.Məmmədova küç.,ev 209 yerləşir.

❑ **Cavid TURAN**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Cəbhədə atəşi necə kəsməli?

## Polkovnik Rövşən Məhərrəmov:

### “Hələ ki savaş qərarını vermək, yaxud antiterror əməliyyatına başlamaq olmaz”

**Erməni silahlı bölmələri ötən sutka cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan, qumbaraatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 79 dəfə pozub. Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 88 dəfə atəş zərbəsi endirib.**

Ermənistanın bəzi elektron kütləvi informasiya vasitələri tərəfindən guya sentyabrın 28-də həlak olan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının ad-soyadları da göstərilməklə yayılmış məlumatın heç bir əsası yoxdur.

Virtualaz.org saytı xəbər verir ki, bu bəyanatla Azərbaycan Müdafiə Nazirliyi çıxış edib.

Nazirlik bəyan edib ki, bu kimi ucuz, tam cəfəng xarakterli məlumatlar yalnız erməni ictimaiyyətini aldatmaq məqsədi daşıyır və bir daha sübut edir ki, düşmən tərəfi mənəvi-psixoloji cəhətdən düşkün vəziyyətdədir: **“Rəsmi olaraq bildiririk ki, adları siyahıda göstərilən şəxslər ümumiyyətlə Silahlı Qüvvələrimizdə yoxdur”.**

Qeyd edək ki, son həftədə Azərbaycan itkilər versə də, düşmənin dəfələrlə çox hərbi qüvvəsini məhv edib, həmçinin işğalçı ölkənin çoxlu sayda yaralısı var. Təmas xəttində gərgin döyüşlər getdiyini hətta Ağdərədə yaşayan erməni əhali də təsdiqləyib və köçmək məcburiyyətində qaldıqlarını etiraf ediblər. 1994-cü ilin 12 mayında imzalanan atəşkəs haqqında müqavilədən sonra dəfələrlə belə gərgin vəziyyət yaranıb, diplomatlar və xarici ölkə rəsmiləri işə qarışıb, vəziyyət nisbətən sabitləşib. Lakin növbəti dəfə düşmən daha da quduzlaşıb. Ermənistanın cani prezidenti hətta BMT tribunasından Qarabağı Ermənistanın tərkib hissəsi kimi təqdim edirsə və işğalçıya qarşı 4 qətnamə qəbul etmiş bir qurum bunu lal sükutla qarşılayırsa, deməli, son əlac Azərbaycanın özünə qalıb və ərazilərin azadlığı üçün vətən müharibəsinə zərurət var. Bəzi müşahidəçilər bunun üçün uyğun məqamın yetişdiyini güman edirlər.

“Danışıqlar prosesi başa çatmaqdadır desəm, səhv etmərəm, ən azından indiki mərhələ üçün. Çünki Azərbaycan və Ermənistan XİN rəhbərləri görüşdü, Minsk Qrupu həmsədrləri ilə görüş baş tutdu, ilin sonuna qədər prezidentlərin görüşməsi üçün vaxt istənildi. Hər iki XİN rəhbəri prezidentlərin görüşünün hazırlanmasını öz öhdəsinə götürdü". Bu fikirləri azadinform-a açıqlamasında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son zamanlar aparılan danışıqlar prosesini şərh edən **politoloq Qabil Hüseynli** deyib.

**Ermənistan prezidenti Serj Sərkisyanın “Qarabağ Ermənistanın ayrılmaz tərkib hissəsidir” fikrinə münasibət bildirən politoloq qeyd edib ki, Sərkisyanın hakimiyyətinin dayaqları sarsıyıb:** “Ermənistan cəbhədə sarsıdıcı məğlubiyyətə düçar olub, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində pozitiv addımlar atılmaqdadır. Bunlar Sərkisyanın xeyrinə deyil. Onun səsləndirdiyi fikir isə populist fikirdir".



Rövşən Məhərrəmov

**Ehtiyatda olan polkovnik Rövşən Məhərrəmov “Yeni Müsavat”a cəbhədəki son durumu şərh edərkən bildirdi ki, düşmən ölkə təxribatlara əl atmaqla, xüsusilə də ağır artilleriyadan istifadə etməklə müəyyən nöqtələrdən öz gücünü göstərmək istəyir:** “Amma baş verənlər də göstərir ki, düşmən ölkənin elə bir gücü yoxdur. Son vaxtlar Ermənistan ordusunda nizam-intizam xeyli aşağı düşüb. Əsgər valideynləri də ordudakı özbaşınalıqlardan ciddi şəkildə narazıdır. Ona görə də cəbhədə Azərbaycana itkilər yaşatmaqla erməni cəmiyyətinin ruhunu qaldırmaq istəyirlər, amma özləri pis vəziyyətə düşür”.

**Bununla belə, R.Məhərrəmov müharibə ehtimalını real sayır:** “Müharibə hər an başlaya bilər. İriçaplı silahlardan istifadə edilməsi sadə məsələ deyil. Düzdür, düşmənin bizim mövqelərimizi atəşə tutması atəşkəs dövründə daim davam edb. Sadəcə, siyasi vəziyyət dəyişdikcə atəşkəsin pozulması halları əvvəlki illərə nisbətən daha çox qeydə alındı. Azərbaycan işğal altındakı torpaqlarını geri tələb edir və ərazilərini qaytarmaqda israrlıdır. Üstəlik, əvvəllər bizdə olmayan silahlar indi bizdə kifayət qədərdir. Ermənilər də başa düşür ki, müharibə hər an baş verə bilər və bu zaman onun məğlubiyyəti qaçılmaz olacaq. Erməni mətbuatı yazıb ki, ordunun mərkəzləşmiş qaydada təchizatında ciddi problemlər yaşanır. Məsələn, Noyabryan rayonu ərazisində xidmət keçən əsgərləri qubernator təmin edir. Ərzaq, geyim təchizatı mərkəzləşmiş qaydada təmin edilmir.

Hətta Xankəndində tank heyətinin 30 faiz çatışmazlığı faktı da etiraf olunub. Müharibə ermənilərin uduzmasına gətirib çıxaracaq".

**R.Məhərrəmov düşmənin aqressivliyini bir məsələ ilə də izah edir:** “Azərbaycandakı parlament seçkiləri ərəfəsində gərginliyin artması təsadüfi deyil. Azərbaycanda böyük bir siyasi hadisə gözlənilir. Erməni hakimiyyəti də təxribatlarla bu mühüm hadisəni pozmaq, bu ərəfədə aranı qarışdırmaq istəyir. Görünən budur ki, düşmən atəşkəsi pozmaqla parlament seçkilərini pozmaq niyyətindədir. Son 15-20 gün ərzində baş verənlər bunun təsdiqidir”.

**Hərbi ekspert deyir ki, düşmənin aqressivləşməsi şəraitində cavab zərbələrinin endirilməsi ən düzgün yoldur:**

“Hətta Müdafiə Nazirliyi bəyan edir ki, bizimkilər ikiqat cavabını verir. Azərbaycan bütün cəbhə boyu cavab zərbələri endirmək qabiliyyətindədir. Amma hələ ki savaş qərarını vermək, yaxud antiterror əməliyyatına başlamaq olmaz. Çünki danışıqlar gedir və bu əməliyyatlardan ölkəmizə qarşı təbliğatda istifadə oluna bilər. Azərbaycandan ehtiyatlanan Ermənistan cəbhə xəttinə yaxın kəndləri köçürməyə vadar oldu. Çünki bizim ordu sərt zərbələr endirdi. Genişmiqyaslı əməliyyatlar olacaqsa da, düşmən tutarlı cavabını alacaq. Ən mühümü odur ki, Ermənistandan fərqli olaraq, Azərbaycan ordusunda ruh yüksəkliyi var”.

**Savaş başlanacağı halda Rusiyanın İrəvana hərbi dəstək verəcəyinə gəldikdə, R.Məhərrəmov qısaca bunu bildirdi:** “Biz müharibəni Qarabağ ərazisində aparacağıq, Ermənistanda yox”.

❑ **Cavid TURAN**




# Müxalifətin seçki ittihamlarına YAP-dan cavab gəldi

### Müxalif namizədlərin qeydiyyatına yaradılan maneələr demokratik düşərgənin səbir kasasını doldurub...

**Parlament seçkiləri yaxınlaşdıqca müxalifət və iqtidar düşərgələrinin bir-birlərinə qarşı irəli sürdükləri ittihamlar artıb. Müxalifət namizədlərinin bir-birinin ardınca qeydə alınmaması demokratik düşərgənin səbir kasasını doldurub. YAP-ın ödənişsiz efir vaxtından imtina etməsi isə qarşı düşərgənin ittihamlarının daha da artmasına gətirib. İddialara görə, YAP əvvəlcədən seçkilərdə iştirak edən müxalif qurumlardan heç birinin 60-dan çox iddiaçısının qeydə alınmayacağını bildiyi üçün belə qərar verib.**

Namizədlərə, imza toplayan, imza verən şəxslərə təzyiq-təhdidlər, eləcə də son mərhələdə imza vərəqələrini dairə seçki komissiyalarına (DSK) təqdim edən iddiaçıların qeydə alınmaması müxalifətin ittihamlarını ağırlaşdırıb.

Lakin **YAP funksioneri Aydın Mirzəzadə** səslənən ittihamlarla razılaşmır: “YAP digər partiyalar kimi, seçkilərdə iştirak edən qurumlardan biridir. Biz Seçki Məcəlləsi daxilində imkan verilən çərçivədə fəaliyyətimizi aparırıq. Hazırda namizədlərimizi irəli sürmüşük, onların qeydə alınması ilə məşğuluq. Seçki kampaniyasına hazırlaşırıq. Hesab edirəm ki, qeydə alınmayan namizədlərin günahını YAP-da görmək, sadəcə, hüququ bilməməkdən irəli gəlir. Seçkini YAP yox, MSK keçirir. Digər partiyalar kimi, biz də qələbə qazanmaq uğrunda mübarizə aparırıq. Kimlərinsə qeydə alınmamasından bu gün müxalifət piar kimi istifadə etməyə çalışır. Hər bir qeydə alınmayan namizədlə bağlı araşdırma aparılır. Maraqlanmaq lazımdır ki, doğrudan da imzalar saxtamı olub, yaxud müddət gözlənilməyib. Əgər onlar Seçki Məcəlləsini oxumuş olsaydılar, bilərdilər ki, dairənin qərarından şikayət etmək hüquqları var. Bizi ittiham etməkdənsə, MSK-ya müraciət etsinlər”.

**YAP funksioneri imzatoplama kampaniyası ilə bağlı müxalifətin səsləndirdiyi fikirləri də əsassız adlandırdı:** “Qeyd edirlər ki, insanlar qorxurlar imza verməkdən. Onların özləri o qədər həqiqətdən qaçırlar ki, insanlar imza vermək istəmirlər. İnsanlar onları öz namizədləri kimi görmək istəmirlər. Bu gün heç kəsin üzərində nə qadağa, nə də təzyiq var. Seçkiyə hazırlıq iki aylıq seçki müddətində olmur. Beş il ərzində seçkiyə hazırlaşmaq lazımdır. YAP olaraq, partiya daxilində üzvlərimizin sayını çoxaldırıq, gənclər, qadınlar, ziyalılarla işləyirik. Müxalifət partiyaları isə bunların heç birini etmir. Sadəcə, seçki müddətində ittihamların sayını artırırlar”.

**A.Mirzəzadə ödənişsiz efir vaxtından imtina etmələrinə də aydınlıq gətirdi:** “YAP böyüklük göstərərək bildirir ki, əgər digər partiyaların 60 namizədi qeydiyyatdan keçməsə, dövlətin ayırdığı pulsuz efir vaxtından imtina edəcək. Yəni YAP özünü digər partiyalarla eyni səviyyəyə qoyur. Bununla da, seçkidə iştirak edən digər qurumların heç birindən xüsusi olaraq, seçilmədiyini nümayiş etdirir. Namizədlərimiz və təbliğatımızla seçilmək istəyirik. Belə olan halda 60 nəfərin qabardılmasının heç bir əsası yoxdur. Əgər sosial bazaları varsa, insanlar onlara dəstək verirlərsə, buyursunlar, istədikləri qədər namizəd irəli sürsünlər. Amma bu gün müxalifət kifayət qədər parçalanıb. Müxalifət onsuz da kiçik olan sosial bazasını parçalayır. Sonra da özünü təmizə çıxarmaq üçün hakim partiyanı hədəf seçir. Seçki hər bir siyasi partiyanın real gücünü müəyyən edən prosesdir. Rəqiblərimizin bizi ittiham etməsi hesab edirəm ki, adımızdan istifadə edərək, özlərinə piar yaratmaqdan başqa bir şey deyil”.

**Məsələ ilə bağlı MSK-dan mövqe öyrənə bilmədik.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015



# Ziya Məmmədovun son payızı

## Nəqliyyat nazirinin 28 may və 11 iyun fəlakəti haqda müdhiş məlumatlar; Anar Məmmədovun rəsmi qəbula dəvəti və "Atletlər kəndi"ndəki məlum avtobus qəzası Məmmədovların sonunu gətirdi; möcüzə baş verməsə...

**Nəqliyyat naziri Ziya Məmmədovun səlahiyyətlərinin qayçılanması, ardından dövlət tədbirlərində gözə görünməməsi geniş müzakirələrə səbəb olub. Telekanallarda yolların, körpülərin açılışına həsr olunan süjetlərin ön planından kəm olmayan nəqliyyat naziri birdən-birə niyə "vuruldu". Bunun səbəbi nədir?**

Ziya Məmmədovun portfelsiz nazirə çevrilməsinin ortada olan və görünən 2 səbəbi var. Bunlardan biri oğlu Anar Məmmədovun Respublika Gününə həsr olunmuş tədbirdə qəfil peyda olması, digəri isə məlum avtobus qəzasıdır.

Azərbaycan hakimiyyətinin cidd-cəhdlə hazırlaşdığı Avropa Oyunları zamanı "Atletlər kəndi"ndə avtobus qəzası baş verdi. İyun ayının 11-də, saat 8.30-da "Atletlər kəndi"nin nəqliyyat deposunda, "Bakubus" Məhdud Məsuliyyətli Cəmiyyətə məxsus avtobus hərəkət zolağından çıxaraq səki ilə gedən Avstriyanın sinxron üzgüçülük üzrə yığma komandasının üzvləri Vanessa Sahinoviçin və Luna Pacerin üstündən keçdi, digər bir neçə idmançıya xəsarət yetirdi.

Bu olayı Ziya Məmmədovun qəzası da adlandırmaq olardı. Nazir sahəsinə aid olan, ona tapşırılan işin öhdəsindən gələ bilməmişdi. Hakimiyyətin rəqiblərinə, Avropa Oyunlarının baş tutmasına qarşı olanlara çox ciddi bir bəhanə vermişdi. Ardından belə xəbərlər yayılmışdı ki, qəza zamanı sükan arxasında olan sürücü vaxtilə məhkumluq həyatı yaşayıb. Amma onu tərcümeyi-halını təmizləyərək işə götürüblər. Belə bir fikirlərin ortaya çıxması təsadüfi deyildi. Qəzanın əks olunduğu videoya baxanlar olayın qəsdən törədilməsini söyləyirdilər. Hətta sürücünün dini təmayüllü radikal terror təşkilatları ilə əlaqələri haqda da fikirlər səslənirdi. Baxmayaraq ki, özünü sürücünün oğlu kimi təqdim edən şəxs hadisənin təsadüfən törədilməsində israr edirdi. Bu iş üzrə istintaq bitməyib. Belə görünür ki, hələ uzun müddət də bitməyəcək...

Nazirin bu qəzasından təxminən 15 gün əvvəl daha bir "çp" olmuşdu. Mayın 27-də "Buta" sarayında Respublika Günü ilə bağlı keçirilən rəsmi qəbulda Ziya Məmmədovun oğlu Anar Məmmədovun peyda olması hakimiyyət daxilində böyük narazılığa səbəb olmuşdu. Nazir oğlunun ali dövlət tədbirinə qatılması, törəndə hansı statusla iştirakı sual doğurmuşdu.

Hələ o vaxt yazmışdıq, bir də yada salaq ki, Ziya Məmmədovun qıcıq və etiraz doğuran bu addımına narazılıq edənlərin əsas arqumenti təxminən bu cür olmuşdu: **"Belə çıxır ki, Ziya Məmmədov kimi başqa nazirlər də öz oğlanlarının əlindən tutub belə tədbirlərə gətirsin. Bəs o zaman protokol, qaydalar harda qaldı?!"**

Mənbəmiz iddia etmişdi ki, Anar Məmmədovun tədbirdə iştirakı ilə bağlı öncədən razılıq olmayıb. Sadəcə, Z.Məmmədov öz əlaqələrindən istifadə edərək oğlunun tədbirdə iştirakını təmin edə bilib. Hətta "Buta"da keçirilən rəsmi dövlət tədbirində A.Məmmədov üçün oturmağa yer olmayıb. O, xarici səfirliklərin nümayəndələri, hərbi atteşelər üçün nəzərdə tutulan masada əyləşdirilib.

Dövlət rəhbərliyinin qəzəbinə səbəb olan bu addımdan sonra nəqliyyat naziri çıxış yolu kimi mətbuata təkzib verilməsi üçün müraciət etdi. Halbuki 13 illik nazirliyi dövründə, ondan əvvəl isə Dövlət Dəmir Yolunun rəisi vəzifəsində çalışarkən Ziya Məmmədov barəsində mətbuatda yazılan ən ciddi yazılara, məlumatlara reaksiya verməmişdi. Təsəvvür edin, Z.Məmmədov oğlu Anarın ayı yeməsi haqda mətbuatda yayılan məlumatlara heç bir reaksiya vermir, amma gənc Məmmədovun Respublika Günü ilə bağlı rəsmi qəbulda iştirakı haqda qəzetdə yazılanlara çevik reaksiya bildirir - öz adından (!) bu xəbəri təkzib edir... Demək, nazir buna görə hansısa təhlükə hiss edib, yaxud ondan ən yüksək səviyyədə izahat istənilib deyə, belə bir addımı atmağa məcbur olub.

Hakimiyyətin nazirə münasibətində son damla isə əlbəttə ki, məlum 11 iyun qəzası oldu. Bütün dünyanın gözü Bakıda, yarışların açılışına saatlar qala Ziya Məmmədovun üzündən hakimiyyət ciddi zərbə alır. Qəsdən adamöldürmə maddəsi ilə həbsdə yatmış bir şəxsə turistləri daşıyan avtobusun sükanı etibar edilir. O sürücü də idarə etdiyi avtobusla bir neçə xarici idmançının üstündən keçir. O avtobus həm də Ziya Məmmədovun karyerasının üstündən keçmiş sayılır...

Ziya Məmmədovun böyük səlahiyyətlərindən məhrum edilməsi prosesi həm də ondan əvvəl belə münasibətlə üzləşmiş nazirlərin aqibətini xatırladır. 2005-ci ildə parlament seçkilərinə bir neçə ay qalmış o dövrdə iqtisadi inkişaf naziri olan Fərhad Əliyevin səlahiyyətləri alınaraq ayrıca komitələrə verilirdi. Parlament seçkilərinə bir neçə gün qalmış isə F.Əliyev həbs olundu.

Bu il də Azərbaycanda parlament seçkiləri keçiriləcək. Belə bir vaxtda nəqliyyat nazirinin səlahiyyətlərinin alınmasının təsadüfi olmasını söyləmək də çətindir.

Baş verənləri belə yekunlaşdırmaq olar: 20 ilə yaxındır karyerası parlayan, vəzifə pillələrində sürətlə irəliləyən, özünə bu hakimiyyətin hesabına böyük imperatorluq qurmuş Ziya Məmmədovun siyasi işığı öləziyir. Onun üçün xilas yolu görünmür. Bu payız Məmmədovlar klanının, sözün siyasi mənasında, son payızı ola bilər. Təbii, möcüzə baş verməsə...

❑ **E.MƏMMƏDƏLİYEV**

# Hakim partiya ilə müxalifət arasında ayrı-seçkilik

## YAP-ın 117, Müsavatın 3 namizədi qeydə alınıb

**"Azadlıq-2015" Siyasi Partiyalar Blokunun Mərkəzi Seçki Qərargahı dünən açıqlama ilə çıxış edib. Açıqlamada bildirilir ki, blok Milli Məclisə seçkilərdə 70 seçki dairəsi üzrə namizədlər təqdim edib. Namizədlərin əksəriyyəti imza vərəqəsi götürüb, dairələrin çoxunda imza vərəqələri DSK-lara təqdim olunub. 9 saylı Binəqədi ikinci seçki dairəsindən Musayev Elşad Nəbi oğlu (Böyük Azərbaycan Partiyası), 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən Bağırov Rəyasət Məmmədağa oğlu (Klassik Xalq Cəbhəsi Partiyası) seçki komissiyaları tərəfindən qeydə alınıb.**

Açıqlamada sonra qeyd olunur ki, yerlərdə icra hakimiyyəti strukturları namizədlərin verilməsinə, imzaların toplanmasına maneçilik törədir, namizədlərə və namizədlərin yaxınlarına müxtəlif üsullarla təzyiq edirlər: "Dairə seçki komissiyaları, süründürməçilik yaradır, bəzi komissiya sədrləri sənədləri qəbul etməmək üçün qaçıb gizlənir, namizədlərdən qanunda tələb edilməyən sənədlər tələb edirlər".



Hakim Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülmüş namizədlərin isə hamısı dairə seçki komissiyaları tərəfindən qeydə alınıb. Bununla da Yeni Azərbaycan Partiyası Seçki Məcəlləsinə müvafiq olaraq, seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiya kimi iştirak etmək hüququ qazanıb. Hələlik başqa heç bir partiya və blok bu hüququ qazana bilməyib. YAP tərəfindən 117 dairə üzrə namizəd irəli sürülüb. 8 dairədən isə hakim partiya namizəd irəli sürməyib.

Müsavat Partiyasının isə namizədlərinin əksəriyyətinə DSK-larda problemlər yaradıldığı partiyanın verdiyi bəyanatda deyilir. Müsavatın Mərkəzi Seçki Qərargahının sədri Gülağa Aslanlının verdiyi məlumata görə, 29 sentyabr saat 14-ə qədər Müsavatın cəmi 3 namizədi DSK-lar tərəfindən rəsmi namizəd olaraq qeydə alınıb. Beş namizədin isə qeydə alınmasından imtina olunub. Təqribən 25 dairədən sənədlər artıq təqdim edilib.

Deputatlığa namizədliyini irəli sürmüş ayrı-ayrı tanınmış ictimai-siyasi xadimlərlə də bağlı DSK-lar qərar verməkdədirlər.

MSK-nın saytında adlar yerləşdirilib. Xalq artisti, millət vəkili Zeynəb Xanlarovanın Milli Məclisə keçiriləcək seçkilərdə deputatlığa namizədliyi rəsmən qeydə alınıb. Seçkiyə bitərəf olaraq qatılan Zeynəb Xanlarova 50 saylı Qobustan-Xızı-Sumqayıt seçki dairəsindən növbəti dəfə qeydə alınıb.

Qeyd edək ki, Zeynəb Xanlarova 1995, 2000, 2005 və 2010-cu il deputat seçkilərində iştirak edərək qalib olub.

9 saylı Binəqədi 2-ci seçki dairəsindən namizədliyini irəli sürən Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağının da namizədliyi qeydə alınıb.

Ədalət Partiyasının sədri İlyas İsmayılovun isə namizədliyi yenidən hazırda deputatı olduğu 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsində rəsmən qeydə alınıb.

Deputatlığa namizədlərin təbliğat-təşviqat kampaniyası isə oktyabrın 9-da başlayacaq. Azərbaycanda keçiriləcək parlament seçkiləri ilə bağlı namizədlərin seçiciləri ilə görüşü üçün qapalı yerlər artıq müəyyənləşdirilib. "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq şəhər və rayonlarda 117 seçki dairəsi üzrə 128 açıq və 128 qapalı yer müəyyən edilib. Yerlərin siyahısı MSK-nın saytında yerləşdirilib.

❑ **Etibar SEYİDAĞA**

## Okeanın o tayından dünyanı silkələyən mesajlar

**Nyu-Yorkda BMT Baş Assambleyasının sentyabrın 28-də keçirilən toplantısında Amerika prezidenti Barak Obamanın çıxışı, ondan təxminən bir saat sonra tribunaya qalxan Rusiya prezidenti Vladimir Putinin söylədiklərinin Azərbaycanda da maraqla gözlənilməsinin iki mühüm səbəbi vardı. Birinci səbəb Amerika və Rusiyanın yaxın illərdə xarici siyasətinin konturlarının açıqlanması idi ki, bunların birbaşa Azərbaycana da təsiri var.**



# Obamanın çıxışının gizli kodları - hədəfdə kimlərdir?

### BMT-nin yubiley toplantısında Obama insan haqları və demokratiya məsələsində kəskin danışdı: “Sən öz opponentlərini məhbus edə bilərsən, amma ideyaları məhbus etmək olmaz”; Putinin çıxışı dünyanın iki fərqli dünyagörüşünü bir daha ortaya qoydu; Bakıda verilən ilk rəsmi reaksiya ABŞ prezidentinə yönəldi: “Əgər Obama həqiqəti bilmək istəyirsə...”

İkinci mühüm səbəb isə hər iki liderin demokratiya və dünyadakı münaqişələrə baxışları idi. Azərbaycan hər iki məsələdə Qərblə və Amerika ilə az qala münaqişə həddindədir. Demokratiyanın “xaricdən idxalını” birmənalı rədd edən, cəmiyyətin və dövlətin inkişafı ilə bağlı baxışlarında Qərblə arasına “Berlin divarı” hörən rəsmi Bakı bu siyasətinə Amerikanın münasibətini birbaşa prezidentin dilindən eşitməli idi.

Rusiya prezidentinin çıxışı da Azərbaycan üçün o səbəbdən mühüm idi ki, şimal qonşumuzun da həm münaqişələrin həllində, həm də demokratiya məsələsində baxışı Amerikadan kəskin fərqlənir. Azərbaycan son illər Rusiya hakimiyyəti ilə daha yaxın münasibətdədir və daxili siyasətdə daima oxşar proseslər gedir. Təsadüfi deyil ki, Putinin çıxışının da əsas tezislərindən biri demokratiyanın “xaricdən idxalına”, demokratik sistem modelinin bütün ölkələrdə tətbiqinin əleyhinə yönəlmişdi. Putin Ukraynada baş verənləri də xarici faktorlarla izah etməyə çalışdı.

Hər iki liderin münaqişələrin həllinə baxışları da indi dünyanın bir nömrəli problemi olan Suriya məsələsində aydın ortaya qoyuldu. Obamanın diktator və xalqının düşməni hesab etdiyi Bəşər Əsədi Putin BMT tribunasından açıq dəstəklədi, dinc suriyalıların qanını tökən ordunun tərəfini tutdu. Necə ki, illərdir Ermənistanın terrorçu liderlərini dəstəkləməkdə də davam edir...

***

### “Öz xalqlarından qorxan rejimlər əvvəl-axır çökürlər”

Barak Obama çıxışının insan haqları və demokratiya ilə bağlı bölümündə öncə demokratiyanın ixracının ayrıca götürülmüş ölkələrdə müxtəlif fəsadlar törətdiyi ilə bağlı ittihamlara münasibət bildirib. O deyib ki, müxtəlif ölkələrdə, xalqların mədəniyyətlərinə, tarix və təcrübələrinə uyğun olaraq müxtəlif formalar ala biləcəyini başa düşür, lakin mütləq olan bir neçə ümumi həqiqətlər vardır. Obama deyib ki, demokratiyanın üzücü, bəzən pozucu olduğunu başa düşür, “lakin hüquqların artırılması uğrunda daimi mübarizə, insanlarımıza daha böyük səs meydanı verilməsi - bizim dünyanın ən güclü ölkəsinə çevrilməyimizə imkan verib”.

**ABŞ prezidenti deyib ki, hakimiyyəti qondarma qanunlardan qorxmadan dinc şəkildə tənqid etmək hüququ yalnız hansısa bir ölkənin, bir mədəniyyətin işi deyil:** “Bunlar insan tərəqqisinin təməlləridir. Mən bilirəm ki, dünyanın bir çox yerlərində müxtəlif baxışlar və belə bir inam var ki, güclü liderlik fərqli düşüncəyə barışmaz olmalıdır. Mən bunu təkcə Amerikanın rəqiblərindən deyil, şəxsi söhbətlərdə bizim bəzi dostlarımızdan da eşidirəm. Mən bununla razılaşmıram. Mən inanıram ki, dinc fərqli düşüncənin əzilməsi gücü yox, zəifliyi və qorxunu göstərir. Tarix göstərir ki, öz xalqlarından qorxan rejimlər əvvəl-axır çökürlər”.



Xeyr, bunlar ABŞ-ın müsəlman dünyasına qarşı qəddar siyasəti haqqında həqiqətlərdir

**Güclü liderlər kimi Corc Vaşinqtonun və Nelson Mandelanın adını çəkən ABŞ prezidenti deyib ki, bu liderlər güclü demokratik təsisatların qurulmasını daimi hakimiyyət hərisliyindən üstün tutublar:** “O liderlər ki, hakimiyyətdə qalmaq üçün konstitusiyaları dəyişirlər, əslində etiraf edirlər ki, öz xalqları üçün uğurlu bir ölkə qurmaqda iflasa uğrayıblar. Çünki bizim heç birimiz əbədi deyilik. Tarix gücün həqiqət olduğuna və bunun həmişə belə qalacağına inanan saxta peyğəmbərlərin və çökmüş imperiyaların iflası ilə doludur”.

**Obama deyib ki, müxalifətin seçki vasitəsilə, dinc yolla hakimiyyətə gəlmək imkanı olanda, ölkə yeni ideyalar qazanır:** “Media azad informasiya verə biləndə, korrupsiya və qanunsuzluqlar faş edilir və onların kökünü kəsmək mümkün olur”.

**ABŞ prezidenti vətəndaş cəmiyyətlərinin (QHT-lərin-red.) inkişafının vacib olduğunu da vurğulayıb:** “Hökumətin təklikdə həll edə bilmədiyi problemlər həll oluna bilər. Mənim inancım budur ki, Amerikanı bu güclü edib. Hətta Amerikada heç də hamı mənimlə razılaşmır. Bu, demokratiyanın təzahürüdür.”

**Obama deyib ki, korrupsiyanı faş edən və insanların gözləntilərini yüksəldən Amerikanın dəstəklədiyi QHT-lərin qəsdi deyildir, bu, texnologiyaların, sosial medianın inkişafı və adamların öz həyatlarını qurmaq üçün sonsuz seçim arzusudur:** “Sən öz opponentlərini məhbus edə bilərsən, amma ideyaları məhbus etmək olmaz. Sən informasiyaya girişi nəzarətə ala bilərsən, amma yalanı həqiqətə çevirə bilməzsən”.

Amerika prezidenti sonda əlavə edib ki, “avtoritarlar inqilabların qığılcımıdır.”

### Yaddan çıxan Qarabağ...

Amerika prezidenti öz çıxışında bir neçə dəfə Rusiyanı, Krımın ilhaqına və Ukraynanın suverenliyinə qarşı təcavüzə yönələn siyasətinə görə, açıq şəkildə tənqid etsə də, Qarabağ münaqişəsindən danışmayıb. Bu bir daha Qərbin Qarabağ məsələsində ikili standartla yanaşdığını göstərir və rəsmi Bakı bu məsələdə elə həm də Ağ Evə yönəlik tənqidlərə görə tam haqlıdır. Amma burada çıxan daha bir arzuolunmaz nəticə də var. Cənubi Qafqazda sülhə böyük təhlükə olan münaqişə dünya güclərinin gündəmində deyil! Bu əlbəttə ki, ədalətsiz yanaşmadır və xüsusən, Minsk Qrupuna üzv ölkə olan Amerika prezidentinin çıxışına müəyyən mənada kölgə də salır.



### Obamanın mesajları kimə ünvanlanıb?

Obama “güclü liderlik” və “hakimiyyətdə qalmaq üçün konstitusiyaları dəyişirlər” ifadələrini işlədərkən konkret ünvan göstərməyib, onların əhatə dairəsini nişan verərkən “bunu təkcə Amerikanın rəqiblərindən deyil, şəxsi söhbətlərdə bizim bəzi dostlarımızdan da eşidirəm”, - deyib. İddialar var ki, Obama bu ifadələri işlədərkən “rəqiblər” dedikdə Rusiyanı nəzərdə tutub. Çünki Putin də konstitusiyanı dəyişərək prezidentlik müddətini 6 il edib. Orta Asiya respublikalarından Özbəkistan və Qazaxıstanda hakim rejimin ömrünü uzatmaq üçün konstitusiyaya dəyişiklik olunub. Ehtimal edilir ki, Obama “dostlarımız” dedikdə indilikdə bunu daha çox Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanlayıb. Heç kimə sirr deyil ki, Ərdoğan cidd-cəhdlə ölkə konstitusiyasını dəyişərək, siyasi sistemi prezident üsul-idarəsinə keçirməyə çalışır. Ərdoğanın bu istəyinə isə xüsusən Amerikada isti baxmırlar. Aydındır ki, bu iradlardan Azərbaycan rəhbərliyinə də “pay” düşür. Azərbaycanda da 2013-cü ilin martında konstitusiya dəyişikliyi olub və bir nəfərin ardıcıl iki dəfədən artıq prezident olması maddəsi götürülüb. Unutmayaq ki, siyasi məhbuslarla bağlı məsələdə də Azərbaycan iqtidarı Amerikanın heç bir xahişlərini birmənalı qəbul etmir.

### “Azərbaycan” qəzeti Obamaya nə yazdı?

**Barak Obamanın çıxışından dərhal sonra Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər sosial şəbəkədəki səhifəsində yazıb:** “Obamadan vicdan məhbusu Yadigar Sadiqova doğum günü hədiyyəsi kimi bir nitq!”

**Obamanın çıxışının Bakıda da diqqətlə izləndiyini “Azərbaycan” qəzetinin məqaləsi də sübut edir. Belə ki, Milli Məclisin rəsmi orqanı ABŞ prezidentinin çıxışının bəzi tezisləri üzərində qurduğu sərt məqalə dərc edib. “Xeyr, bunlar ABŞ-ın müsəlman dünyasına qarşı qəddar siyasəti haqqında həqiqətlərdir” başlıqlı məqalədə deyilir:** “BMT Baş Assambleyasının sessiyasında ABŞ prezidentinin nitqi gözlənildiyi kimi, 2013-cü ildəki çıxışdan az fərqləndi. Bu dəfə də o, ölkəsinin dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində həyata keçirdiyi ”uğurlu" siyasətdən danışdı. Bütöv ölkələrin xarabalığa çevrilməsi, minlərlə insanın ölümü, milyonların qaçqın vəziyyətinə düşməsi isə “antidemokratik rejimlərin” və terrorçuların ayağına yazıldı”.

**Obamanın vətəndaş cəmiyyətlərinin inkişafı ilə bağlı dediklərinə belə cavab verilib:** “Cənab Obama, sizə daha çox məlumat lazımdır? Sizin ölkəniz bütün dünyanı nəzarətdə saxlamaq və müstəqil dövlətləri təhdid etmək üçün geniş QHT və media şəbəkəsi yaradıb. Müxtəlif ölkələrin daxilində formalaşdırılan ”beşinci kolon" ABŞ-ın maraqlarını həyata keçirir, bu alınmayana isə ondan sabitliyin pozulması, dövlət çevrilişləri ssenarilərinin reallaşdırılması üçün istifadə olunur. Həmin antimilli qüvvələrin ifşa olunması, onlara qarşı hər hansı tədbirin görülməsi dərhal məlum QHT və media şəbəkəsi tərəfindən “vətəndaş cəmiyyətinə hücum” kimi qələmə verilir".

**Daha bir sitata diqqət yetirək:** “Əgər Obama həqiqəti bilmək istəyirsə, bütün dünyanın onun administrasiyası haqqında nə düşündüyünü eşitməli, Vaşinqtonun öz təsiri altına sala bilmədiyi həqiqi müstəqil medianın yazdığını və nümayiş etdiyini oxumalı və görməlidir. Bütün sosial şəbəkələr Amerikanın hazırda yürütdüyü siyasətə nifrət püskürür. İraq, Suriya, Liviya, Əfqanıstan, Yəmən xarabalığa çevrilib. Bu ölkələrdə şəhərlər, kəndlər dağıdılıb, insanlar ölüm təhdidi və səfalətdən baş götürüb Avropaya pənah aparırlar. Orada da onları yeni təhdidlər - irqi və dini ayrı-seçkilik gözləyir. Artıq Avropanın özündə də belə düşünürlər ki, bu gün ”qoca qitə" ABŞ-ın təcavüzkar və dağıdıcı siyasətinin acılarını yaşayır".

**“Азярбайъан” мягаляни бу ъцмлялярля йекунлашдырыб:** “Nəticə etibarilə BMT Baş Assambleyasının builki sessiyası Amerika prezidenti üçün əməllərinin fotosərgisini xatırlatdı. Görəsən, nitqi zamanı Obama əsasən hansı tərəfə baxırdı? Ərəb və Afrika liderlərinin üzünü görməmək üçün ya aşağı mətnə, ya da yuxarı tavana...”

Qeyd edək ki, Putindən fərqli olaraq Obamanın çıxışı, xüsusən insan haqları və demokratiya ilə bağlı dedikləri alqışlanıb. Obama çıxış edərkən isə ekranlarda daha çox ərəb və Afrika nümayəndələrini göstəriblər...

### İqtidar da, müxalifət də öz mesajını aldı...

Obamanın və Putinin çıxışı dünyanın iki fərqli inkişaf modelini, iki fərqli dünyagörüşünü bir daha ortaya qoydu. Bakıda verilən ilk rəsmi reaksiya Obamaya yönəldi və göründüyü kimi, həm də çox sərt ifadələrlə. Əsas həm də odur ki, yaxınlaşmaqda olan parlament seçkilərində iqtidar da, müxalifət də öz mesajını aldı... Kimin nə nəticə çıxaracağını isə yaxın aylarda biləcəyik...

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015

# Obamanın mesajlarına müxalifətdən və iqtidardan reaksiya

**ABŞ prezidenti Barak Obama BMT Baş Assambleyasındakı çıxışının xeyli hissəsini dünya ölkələrində demokratiyaya, demokratiyanı pozan avtoritar quruluşlara həsr edib. Obama deyib ki, demokratiyanın müxtəlif ölkələrdə, xalqların təkrarsız mədəniyyətlərinə, tarix və təcrübələrinə uyğun olaraq müxtəlif formalar ala biləcəyini başa düşür, lakin mütləq olan bir neçə ümumi həqiqətlər, təməl prinsiplər var və onlar ayrı-ayrı dövlətlərin daxili işi deyil, ümumbəşəri dəyərdir.**

ABŞ prezidenti bəyan edib ki, tarix göstərir ki, öz xalqlarından qorxan rejimlər əvvəl-axır çökürlər. O bəzi ölkələrdə iqtidarların öz ömürlərini uzatmaq üçün konstitusiyaya dəyişiklik etməsini pisləyib.

Müxalifətin və hakim Yeni Azərbaycan Partiyasının ABŞ prezidentinin çıxışına münasibətini öyrəndik.

**Müsavat Partiyasının başqanı Arif Hacılı** bildirdi ki, 21-ci əsr bütün dünyada demokratik dəyişikliklər əsridir və dünyanın bəzi ölkələrində avtoritarizmdən demokratiyaya keçid prosesi gedir. Bir çox ölkələr isə bu keçidin astanasındadır: "İnsanlar daha əvvəlki qaydalarla yaşamaq istəmir. İnsanlar azad cəmiyyətdə, bərabər imkanlar, azad rəqabət şəraitində yaşamaq, öz rəhbərlərini özləri seçmək istəyir. İndi ayrı-ayrı xalqların bu istəyi bəşəriyyətin aparıcı gücləri tərəfindən dəstəklənir. Bu gün dünyanın aparıcı güc mərkəzlərindən biri ABŞ-dır. Bu ölkənin prezidentinin parlaq çıxışı tarixdə qalacaq və azadlıq uğrunda mübarizə aparan dünya xalqları onun bu çıxışından zaman-zaman faydalanacaqlar.

Barak Obamanın çıxışında olan bəzi mesajlar həm də Azərbaycan hakimiyyətinə aiddir. Çünki Azərbaycanda da konstitusiyanın dəyişdirilməsi yolu ilə hakimiyyətin uzadılması baş verib. Azərbaycanda azad cəmiyyətin qurulması imkanları hakimiyyət tərəfindən daim məhdudlaşdırılır. Azərbaycan hakimiyyəti ABŞ prezidentinin bu çağırışına diqqətlə yanaşmalı, siyasətində dönüş yaratmalıdır.

Heç şübhəsiz ki, zorakılıqla idarə olunan cəmiyyətlərdə demokratik dəyişikliklər inqilabi yolla, partlayış yolu ilə baş verir. Hakimiyyət nəzərə almalıdır ki, Azərbaycan cəmiyyəti kifayət qədər inkişaf etmiş cəmiyyətdir, öz inkişaf səviyyəsinə görə təxminən Gürcüstan, Ukrayna səviyyəsində, bəlkə də onlardan bir qədər də irəlidə olan cəmiyyətdir. Azərbaycanın demokratik ənənələri var. Bütün əlamətlərdən görünür ki, Azərbaycan xalqı daha əvvəlki kimi yaşamaq istəmir. Dəyişikliklər naminə fədakarlığa hazırdır. Bundan sonra da Azərbaycan xalqını avtoritar qaydalarla, zorakı üsullarla uzun müddət idarə etmək mümkün olmayacaq".

**A.Hacılı dedi ki, Azərbaycan hakimiyyəti həm ölkə daxilində, həm də bütün dünyada baş verənlərdən nəticə çıxarmalı, siyasətində dərhal həlledici dəyişikliklər etməlidir:** "Siyasi məhbusları azadlığa buraxmaq, söz və ifadə azadlığını, sərbəst toplaşma hüququnu təmin etməklə, azad və ədalətli seçkilərin keçirilməsi üçün zəruri islahatlara başlamaqla cəmiyyətdə mülayimləşməyə nail olmaq mümkündür. Bunun ardınca fundamental siyasi və iqtisadi islahatlar həyata keçirilməlidir. Xalqımız və dövlətimiz üçün arzu olunan inkişaf prespektivi budur. Əgər bütün bu çağırışlar qulaqardına vurulsa, ölkədə yenə də avtoritar idarəçiliyi davam etdirmək



**Arif Hacılı:**
"Hakimiyyət ABŞ prezidentinin bu çağırışına diqqətlə yanaşmalı, siyasətində dönüş yaratmalıdır"



**Sərdar Cəlaloğlu:**
"ABŞ neçə ki, dövlətlərin yanındadır, xalqların yanında deyil, demokratiya inkişaf eləyə bilməz"



**Aydın Mirzəzadə:**
"Barak Obamanın çıxışında mən Azərbaycanla bağlı hər hansı bir fikir görmədim"

xətti götürülsə, iqtisadi tənəzzül və siyasi qarşıdurmanın daha da kəskinləşməsi qaçılmaz olacaq".

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, Obama əslində demokratiya ilə bağlı hər kəsin bildiyi nəzəriyyəni yenidən səsləndirib. Obama bu nəzəriyyəni təkrarlamaqdansa ABŞ-ın demokratiyanın tapdayan avtoritar rejimlərlə nədən zaman-zaman iş birliyində olmasından, nə üçün xalqlarla deyil, dövlətlərlə işləməsindən danışsaydı yaxşı olardı:** "İnqilab nəzəriyyəsi sübut edir ki, avtoritar idarəçilik, insan haqlarının pozulması gec-tez inqilablara gətirib çıxarır. Barak Obama ABŞ-ın bu cür rejimlərə qarşı konkret əməli mövqeyini ortalığa qoysaydı bu, başqa məsələ. Obama isə hər kəsin bildiyi və biz də daxil çoxlarının dediyi fikirləri deyib. Halbuki Amerika dünyada demokratiyanın bərqərar olması üçün ciddi addımlar ata bilər, lakin bunu çox vaxt etmir. Azərbaycanda demokratiyaya ABŞ-dan yetərli dəstək verilmir. İndiyə qədər iki-üç dəfə ciddi şans yaranıb ki, Azərbaycanda demokratiyaya keçid baş versin. Lakin ABŞ-dan prosesə, demokratiya uğrunda mübarizə aparan qüvvələrə dəstək verilməyib, proses yarımçıq qalıb və Azərbaycanda demokratiya geriyə doğru getməyə başlayıb. ABŞ və Avropa ölkələri demokratiyaya açıq və birmənalı dəstək vermədikləri üçün demokratik proses gedən dövlətlərdə vətəndaş müharibələrinin, inqilabların baş verməsinin xarici faktorlarını təmin eləmiş olurlar. Diktatorların hərəkətləri ilə törətdiklərinə ABŞ və Avropa hərəkətsizlikləri ilə dəstək vermiş olurlar. Lakin Obama gərək bu vəziyyətə son qoyulacağını açıq elan edəydi. Lakin bunu etmədi, yüz il bundan öncə Vilsonun dediyini təkrarladı. Bu, ABŞ-ın irəliyə yox, geriyə getməsidir. ABŞ neçə ki, dövlətlərin yanındadır, xalqların yanında deyil, demokratiya inkişaf eləyə bilməz".

**YAP-ın şöbə müdiri, deputat Aydın Mirzəzadə isə bildirdi ki, Barak Obamanın demokratiyanın ümumbəşəri dəyər olduğu, bəşəriyyətin demokratiyadan başqa inkişaf yolu olmadığı haqda dediklərini bölüşür:** "Həqiqətən də demokratiya bəşəriyyətin və hər bir ölkənin inkişafının baza prinsipidir. ABŞ prezidentinin bu barədə dedikləri ilə razıyam. Amma o əhval-ruhiyyə ilə razılaşa bilmirəm ki, bəzi ölkələr özünü demokratiyanın hakimi kimi göstərməyə çalışırlar. Bu, artıq digər ölkələrin suverenliyinə müdaxilədir, müstəqilliyini şübhə altına almaqdır. Hər bir ölkənin özünün daxili siyasəti var və hər bir ölkənin özünə xas inkişaf istiqamətləri var. Bəli, demokratiya, insan hüquqları burada əsas olmalıdır. Ancaq bir ölkənin daxili siyasətini eyni ilə başqa bir ölkəyə diktə edib prokuror rolunu oynamaq qəbuledilməzdir. Bu gün ABŞ-ın Konstitusiyasında demokratiya sözü yoxdur, bir çox ştatlarında ölüm hökmü Cinayət Məcəlləsində qalır. Hər bir ölkənin qanunvericiliyi, konstitusiyası, orada edilən dəyişikliklər həmin ölkənin inkişafı naminə qarşısına qoyduğu məqsədlərdən irəli gəlir.

Barak Obamanın çıxışında mən Azərbaycanla bağlı hər hansı bir fikir görmədim. ABŞ prezidentinin fikirləri ümumi demokratiya ilə bağlı olan fikirlərdir".

❑ **Etibar SEYİDAĞA**

# Avropa Azərbaycan neftindən imtina edə bilərmi?

**Şahin Cəfərli:** "Aİ daxilində hətta Azərbaycan neftinin idxalına sanksiya tətbiq olunması məsələsi gündəmə gəlsə belə, çətin ki, Britaniya hökuməti buna razılıq versin"



Şahin Cəfərli

**Azərbaycanın Avropa Birliyi ilə münasibətlərinin gərginləşməsi neft satışına mane ola bilərmi? Məsələ burasındadır ki, Azərbaycanın əsas ixrac məhsulu olan və eyni zamanda əslində dövlətin əsas gücü hesab olunan neftin əsas alıcısı Avropa ölkələridir.**

Məsələn, 2014-cü ildə Azərbaycan neftinin əsas alıcısı İtaliya olub. Belə ki, ötən il Azərbaycanın neft ixracatının 23 faizi İtaliyaya gerçəkləşib. Ümumilikdə Azərbaycan neftini 30-a yaxın ölkə alsa da, bu siyahıda əsas yeri Avropa ölkələri tutur. Yeri gəlmişkən, İtaliyadan sonra Azərbaycan neftinin əsas alıcıları sırasında Almaniya (11 faiz) və Fransa (9 faiz) qabaqcıl yerləri tutur.

Göründüyü kimi, yalnız 3 Avropa ölkəsi Azərbaycan neftinin 43 faizini alır. Yeri gəlmişkən, neftimizin digər əsas alıcıları sırasında 12 faizlə Gürcüstan da var. Bu isə onu göstərir ki, Bakının ən neft müştərisi AB ölkələridir. Bu isə sual yaradır: əcəba, münasibətlərin gərginləşməsi Avropadakı neft alıcılarının Azərbaycan neftindən imtinasına səbəb ola bilərmi? Doğrudur, hələlik Azərbaycanın Avropa Birliyi ilə münasibətləri sanksiyalar səviyyəsinə gəlib çatmayıb, ancaq son həftələrdəki gərginliklər bunu istisna da etmir.

**Siyasi şərhçi Şahin Cəfərli deyir ki, hələlik münasibətlərin sanksiyalar səviyyəsinə çatması real deyil:** "Azərbaycanla Avropa Birliyi, ümumən Qərb dünyası arasında münasibətlərin iqtisadi sanksiyalar səviyyəsinə qədər pisləşməsi ehtimalını yüksək görmürəm. Bundan ən çox zərər çəkən Azərbaycan tərəfi olar. Açığı, rəsmi Bakının onun üçün intihara bərabər olacaq belə bir durumun yaranmasına rəvac verəcəyinə inanmıram. Siyasi xarakterli sanksiyalar, məsələn, səfərlərə qadağa qoyulması, yaxud da aktivlərin dondurulması kimi qismən iqtisadi xarakterli sanksiyalar ola bilər. Lakin Azərbaycan neftindən imtina olunması kimi radikal addımın atılması inandırıcı deyil".

**Hətta Rusiya kimi ölkə ilə AB arasında enerji əməkdaşlığının davam etdiyini xatırladan ekspertə görə, indiki halda nə Bakı, nə də Avropa paytaxtları belə bir qərara getmək fikrində deyil:** "Hazırda göz önündə olan nümunəyə diqqət yetirək. Məlum olduğu kimi, Avropa Birliyi, ABŞ və onların Kanada, Yaponiya, Avstraliya kimi bir sıra müttəfiqləri Rusiyaya qarşı ciddi sanksiyalar tətbiq ediblər. Rusiya şirkətlərinin Qərbdəki maliyyə bazarlarına çıxışı bağlanıb, onların Qərb maliyyə institutlarından əlverişli şərtlərlə kredit cəlb etmək imkanları yoxdur və bu ölkəyə müasir texnologiyaların satılmasına da qadağa qoyulub. Bütün bu önəmli sanksiyalara və qarşılıqlı siyasi-iqtisadi əməkdaşlığın səviyyəsinin aşağı düşməsinə baxmayaraq, Avropa Birliyi Rusiyanın 1 saylı enerji tərəfdaşı olaraq qalır. Rusiyanın öz neft və təbii qazını ixrac etməsində hər hansı problem yoxdur və gələcəkdə bu sahədə sanksiyaya məruz qalacağından söhbət getmir. Bu örnəyi nəzərə alaraq düşünürəm ki, hətta Azərbaycan-Qərb münasibətlərində sanksiyaların tətbiqinə səbəb olacaq dərəcədə ciddi böhran yaransa belə, Azərbaycanın dünya enerji bazarındakı iştirakına hər hansı məhdudiyyət qoyulması gündəmə gəlməyəcək".

**Digər tərəfdən, Ş.Cəfərli belə bir qərarın Azərbaycanı Rusiya ilə daha da yaxınlaşdıra biləcəyini nəzərə alaraq Avropanın bu cür sərt addıma getməyəcəyini düşünür:** "Belə bir qərar eyni zamanda Azərbaycanı Rusiyanın ağuşuna atmaq anlamına da gələcəyi üçün Avropanın bu varianta isti baxacağına inanmıram. Məlumdur ki, Azərbaycan neftinin yeganə ixrac marşrutu Qərbə yönəlmiş BTC xətti deyil. Şimala yönələn Bakı-Novorossiysk boru kəməri də mövcuddur və hazırda fəaliyyət göstərir. Kritik situasiyada Azərbaycan hökuməti Bakı-Novorossiysk kəməri ilə ixrac olunan neftin həcmini artıra bilər. Yaxud da Aİ üzvü olmayan bəzi ölkələrlə *(məsələn, Türkiyə, İsrail və s.)* danışıqlara gedərək həmin dövlətlərin BTC-dən daha çox neft götürməsi barədə razılıq əldə edilməsi də mümkündür. Ona görə də neft embarqosu ciddi effekt verə bilməz.

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan neftinin əsas hasilatçısı Böyük Britaniyanı təmsil edən transmilli BP şirkətidir. Aİ daxilində hətta Azərbaycan neftinin idxalına sanksiya tətbiq olunması məsələsi gündəmə gəlsə belə, çətin ki, Britaniya hökuməti buna razılıq versin".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015

# “Nazirlikdən dedilər öz fəaliyyətinə davam et”

## Adı qalmaqalda hallanan Azərbaycanın İspaniyadakı səfiri “Yeni Müsavat”a danışdı

**Azərbaycanın İspaniyadakı səfiri Altay Əfəndiyevin adı ətrafında yaranan ajiotaj səngisə də, elçi ilə bağlı müəmmalara tam aydınlıq gətirilmədi. Azərbaycanın Xarici İşlər Nazirliyinin də bu faktın üstündən sükutla keçməsi müəmmaları artırdı.**

Xüsusilə də İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı yanında keçmiş nümayəndəsi Arif Məmmədov, Avstraliyadakı səfirliyimizin üçüncü katibi Anar Həsənov və Azərbaycanın Niderland Krallığındakı səfirliyinin konsulu Nahid Cəfərovun adı ətrafında baş verənlər, gündəmi zəbt edən “diplomatik qalmaqallar”ın ardınca İspaniyadakı səfirimizin də öz postunu tərk etməkdən imtinası xəbərinin yayılması ciddi müzakirələrə səbəb oldu.

Xatırladaq ki, Altay Əfəndiyevin səfir səlahiyyətlərinin 4 ay əvvəl bitdiyi və onun geri çağırıldığı, lakin elçinin yenə də İspaniyada Azərbaycanın səfiri kimi fəaliyyət göstərdiyi iddiaları var. Üstəlik, bəzi mənbələr Altay Əfəndiyevin səfirliyi “ailə təsərrüfatına çevirdiyini” iddia edib. Bildirilib ki, səfirliyin vur-tut beş əməkdaşı var. Onlar da hamısı bir-biri ilə qohumdur. Düzdür, A.Əfəndiyev qısa da olsa, barəsində mətbuatda yazılanlara reaksiya verib. Həmçinin onunla qohumluq əlaqələrinə malik şəxslərin səfirlikdə çalışmasını təkzib edib. O əlavə edib ki, həmin şəxslər Xarici İşlər Nazirliyinin işçiləridir. İspaniyadakı səfirin ətrafında nə baş verir, sualına geniş şəkildə aydınlıq gətirmək üçün elçiyə telefon açdıq.

***- Altay müəllim, sizin İspaniyadakı səfirlikdən geri çağırıldığınız, lakin Bakıya dönməkdən imtina etdiyiniz barədə xəbərlərə münasibətinizi bilmək istərdim. “Yeni Müsavat”ın oxucularına şəxsinizlə bağlı məlumatlar haqda nə deyə bilərsiniz?***

- Mən digər mənbələrdə bu məsələni şərh eləmişəm. Sizə bir daha təkrar edirəm, mən qanuna, nizam-intizama riayət edən, məsuliyyətli bir insanam və əgər belə bir şey olsaydı, mən təbii ki, ya geri qayıdacaqdım, ya da... Hazırda mən öz fəaliyyətimi davam etdirirəm. Əgər mənimlə bağlı prezident sərəncamı olubsa da, onun əsasında mənə hansısa bir təlimat, ya başqa bir şey gəlməyib. Mən özüm də araşdırma apardım. Əsas mənbə prezident saytıdır, sənədlər orda dərc olunur. Ancaq mənimlə bağlı orda belə bir sərəncam yoxdur. İndi mən uzaqdayam, Madriddəyəm. Orda nə baş verib, mən bunu bilmirəm. Çox güman ki, burada texniki, ya növbəti bir səhv olub. Başqa bir şey ola bilməz. Çünki əgər mayda sərəncam çıxıbsa, mən indiyə qədər niyə burda oturmuşam? Mənimlə bağlı hər hansı qalmaqalın olmasından yazırlar, bunların heç biri həqiqətəuyğun deyil. Mən bilmirəm bütün bunları kim, nə məqsədlə yazır.

***- Amma prezident sərəncamının rəsmi qəzetdə dərc olunduğu deyilir. Olmayan bir sərəncam niyə dərc olunsun axı?***

- Onu bilmirəm. Rəsmi qəzetlərdə varsa, onda Prezident Administrasiyasına zəng edin, cavabını istəyin. Çünki mənə nazirlikdən nə bir xəbər, nə təlimat gəlib. Dedilər öz fəaliyyətinə davam et!

***- Belə bir məsələ başqa bir vaxt baş versəydi, yəqin bu qədər rezonans doğurmazdı. Amma Arif Məmmədov və digər diplomatlarla bağlı baş verənlərlə eyni vaxta təsadüf etməsi sizə diqqəti artırdı. Bunun fərqindəsinizmi?***

- Hər halda, nazirliyə *(XİN-i nəzərdə tutur-E.P.)* qarşı çox xoşagəlməz, haqsız-ədalətsiz kampaniya aparılır. Arif Məmmədovun məsələsini şərh etmək istəmirəm. Amma məsələyə məsuliyyətlə yanaşmağınızı xahiş edirəm. Hansısa bir sarı mətbuatda yazılanları yoxladıqdan sonra bu barədə nəsə yazmaq lazımdır. Burda ölkənin, diplomatların, dövlət məmurlarının nüfuzundan söhbət gedir. Bir ölkənin nazirliyinin adını belə əsassız məsələlərdə hallandırmaq düzgün deyil.

***- Yəqin Arif Məmmədovla tanışlığınız var, onun ətrafında nə baş verdi - sualına cavabınız varmı?***

- Doğrusu, bunu bilmirəm. Amma bu məsələni pisləyirəm. Diplomat belə nalayiq hərəkətlərə yol verməməlidir. Diplomatiya əsgərlik kimi bir şeydir, xüsusi nizam-intizam tələb edən fəaliyyətdir. Əgər sən narazısansa, çıx get və nə ilə məşğul olmaq istəyirsənsə, ol. Amma burda nə baş verib, doğrusu, bilmirəm. İstənilən halda belə hərəkətləri qəbul etmirəm. Hər bir kollektivdə nəsə ola bilər. Amma bu məsələləri mətbuata çıxartmaq nə dərəcədə düzgündür, mən bunu deyə bilmərəm. Mətbuat da belə sensasiyalar axtarır. Mənim məsələmdə isə heç bir şey yoxdur, bunu siyasiləşdirməyə qətiyyən əsas yoxdur.

***- Altay müəllim, nə qədər vaxtdır diplomatik fəaliyyətlə məşğulsunuz?***

- Mən 23 ildir diplomatiya sahəsində işləyirəm, böyük stajım, öz adım, hörmətim var. Məni belə bir müzakirə obyektinə çevirmək çox xoşagəlməzdir. Yəqin ki, öz tərəfimdən hansısa tədbirlərə əl atacağam. Amma təbii ki, rəhbərliklə razılaşdırandan sonra hər hansı bir hərəkət edəcəyəm.

***- İspaniyada neçə ildir səfir kimi çalışırsınız?***

- 2010-cu ildən fəaliyyətdəyəm.

***- Yəni rotasiya vaxtınızdır?***

- Əslində rotasiya vaxtıdır. Bir neçə səfirin rotasiya vaxtıdır. Qanuna görə, biz 5 il fəaliyyət göstəririk. Amma vaxtı uzatmaq, yaxud vaxtından tez çağırmaq prezidentin səlahiyyətindədir. Mənimlə bağlı digər bir məsələ də var: may ayında GUAM Nazirlər Şurasının qərarı ilə qurumun baş katibi seçilmişəm. Yanvarın 1-dən mən yeni vəzifəyə başlayacağam. O vaxta qədər, çox güman ki, bu yaxınlarda məni geri çağırmaqla bağlı sərəncam olacaq və yaxud bir xəbər eşidəcəksiniz.

***- Deməli, may ayında siz bu vəzifəyə təyin olunubsuz. Elə həmin ayda da prezidentin sizinlə bağlı sərəncam verdiyi bildirilir. Ola bilərmi ki, sərəncam olub, sadəcə, sonradan onun icrası yüksək səviyyədə təxirə salınıb?***

- O ola bilər. Mən bilmirəm, bəlkə orda texniki, ya bürokratik hansısa səhv olub, bunu başqa mənbələrdən araşdıra bilərsiniz. Bu məsələyə digər qurumlar düzgün izahat verə bilər.

***- Sizin Azərbaycana qayıtmaq niyyətində olmadığınız haqda iddiaların necə, əsası varmı?***

- Qətiyyən. *(Üç dəfə təkrar edir-E.P.)*

***- Səfir vəzifəsindən sonra hansı fəaliyyətlə məşğul olmaq niyyətindəsiniz? Hansısa planınız varmı?***

- Elə bir planım yoxdur. Mən diplomatam. Digər tərəfdən, bir neçə ölkə baş katib vəzifəsini mənə etibar edib. Bilmirəm bu vəzifədə 5, ya 6 il qalacağam. Ondan sonra təbii ki, nazirliyin daxili sərəncamında olacağam.

***- Diplomatlarımız ətrafında baş verənlər bir sıra hallarda Azərbaycana qarşı Qərbdən gələn təzyiqlərlə əlaqələndirilir. Bu barədə nə demək olar?***

- Bizim yerli mətbuat yazır belə şeyləri. Heç bir təzyiq yoxdur. Hər halda, Azərbaycanla İspaniya arasında çox gözəl münasibətlər var və hər hansı təzyiq hiss olunmur.

***- Yeri gəlmişkən, İspaniyanın Kataloniya bölgəsinin müstəqillik istəyi, son bazar keçirilən referendum separatçı Qarabağ ermənilərı üçün presedent rolunu oynaya birləmi?***

- Xeyr. Katalonlar da bizim məsələni çox gözəl başa düşürlər və bilirlər ki, burada nə paralel, nə müqayisə aparmaq düzgün deyil. Burada bəzi radikal solçu qüvvələr var, onlar da azlıqdadırlar. Millətçi-separatçı qüvvələr də gözəl başa düşürlər ki, Qarabağda hərbi güc vasitəsilə vəziyyət dəyişib və burada nə referendum, nə də başqa bir şey keçirilə bilməz.

***- Belə demək mümkündürmü ki, İspaniya artıq parçalanmaq üzrədir?***

- Yox, hələ belə bir şey yoxdur. Çox güman ki, dialoq vasitəsilə məsələ həll olunacaq. Separatçılar parlamentdə qalib oldular, ancaq referendumda 47,8 faiz səs aldılar. Rəsmi rəqəmlər isə oktyabrın 4-də elan olunacaq. İnanmıram ki, ciddi dəyişikliklər olsun...

❑ **Elşad PAŞASOY**



**Altay Əfəndiyev: “Çox güman ki, bu yaxınlarda məni geri çağırmaqla bağlı sərəncam olacaq”**

# İnsan haqları universal deyilmi?



**Hüseynbala SƏLİMOV**

**“Şərq incə məsələdir!” - deyən “Səhranın bəyaz günəşi” filminin qəhrəmanı yoldaş Suxovun ardınca Rusiya mənbələri ölkələrinin Suriya probleminə cəlb olmasından sanki böyük bir məmnunluq duyaraq qoca Şərqi Rusiyasız anlamağın çox çətin olduğunu vurğulamaqdan usanmırlar. Adam belə yazıları oxuyandan sonra özündən də asılı olmadan “İndi nə edək ki, sizin qartalınız ikibaçlıdır!” deməkdən özünü zorla saxlayır...**

O ki qaldı Qərbin Şərqi anlamasına, bizə də elə gəlir ki, Qərb bir o qədər də buna cəhd etmir. Amma “ərəb baharı” ərəfəsində tanınmış politoloq F.Zaxarianın maraqlı yazısını oxumuşduq. Bu yazını oxuyan heç də deməzdi ki, Qərb Şərqi anlamır. Daha düzgünü bu olardı ki, “Qərbdə siyasət və hərb adamları Şərqi anlayanları eşitmək istəmir” deyəsən...

Qərbin bu vaxta qədər dünyaya yönəlik siyasəti insan haqlarının universallığına əsaslanıb. Demirik ki, bu yanlış siyasət olub. Özünüz diqqətlə baxın. Şimali Koreyaya nəzər salanda demək olar ki, bu ölkə hələ yüz il bundan sonra da demokratik dəyərləri qəbul etməyə hazır olmayacaq. Amma qarşınızda Cənubi Koreya da var. Adam lap çaş-baş qalır, deyilmi?..

Qeyri-ixtiyari olaraq soruşmaq istəyirsən ki, görən, koreyalıları hansı Koreya daha çox təmsil edir? Etiraf edirik ki, çətin məsələdir...

Amma bu çətinlik də şərtidir. Cənubi koreyalılara öz iradəsini ifadə etməyə imkan verilib. Şimali koreyalıların isə bu imkanı yoxdur - ölkə totalitar ölkədi və o, millətin iradəsinin ifadəçisi deyil...

Eləcə də Yaponiyanı götürmək olar. Şərqdirsə, elə bu da şərqdir... Nə olsun ki, uzaq şərqdir? Baxın, görün, milli dəyərlərlə Qərb dəyərləri necə uzlaşdırılıb...

Güman edirik ki, M.Veber bu günün Çinini görə bilsəydi özünün etikası ilə bağlı müəyyən düzəlişlər edərdi...

Amma uğursuzluqlar da var. Nə gizlədək? “Ərəb baharları” ümidləri elə də doğrultmadı. Elə bir ölkə olmadı ki, orada gözləntilərin doğrulduğunu iddia edə biləsən...

Hətta mənim fikrimcə, MDB ölkələrindəki “rəngli inqilablar” da onlarla bağlı gözləntilərə xilaf çıxdı... Bu gün Gürcüstan da, Ukrayna da yerində sayır...

Sözsüz ki, ölkələrin resurslarının olmaması böyük maneədir. Amma resurslar olsaydı, nə vardı ki?! Gərəkdir ki, bu resursları da yaradasan...

Ukraynadan çox danışmayacam. Həm bu haqda çox yazdığımdan, həm də çox şeyin aydın olması ucbatından uzunçuluğa ehtiyac yoxdur...

Amma Gürcüstan... Bəli, bu haqda bir-iki kəlmə yazmağa dəyər. M.Saakaşvili heç nə etməsə də, korrupsiyanı xeyli cilovlamışdı. Bu, az məsələ deyil. Amma o da axıra qədər duruş gətirmədi. O mənada ki, onun da partiyası seçkiləri uduzdu...

İndi nə deyək? Söyləyək ki, xristian Gürcüstanında da insan haqlarının aliliyi və universallığı fəlsəfəsi daşa dəydi?..

Yox, bunu demək istəməzdik. Mənə getdikcə daha çox elə gəlir ki, demokratiya bir vərdişdir, təcrübədir. İnsanlar bu təcrübəni keçməlidirlər və yalnız bundan sonra demək olar ki, kimsə demokratiyaya hazırdır, kimsə hazır deyil!

Həm də ilkin şərtlər və hətta kənar şərtlər də burada riyazi fizika tənlikləri üçün vacib olduğundan heç də az vacib deyil. Əvvəldən dövlətçilik təcrübəsi və vərdişləri olanda demokratiyaya keçid daha asan baş tutur...

Elə ki, bu vərdişlər olmur, onda sosial-siyasi rəqqasın amplitudası kəllə-çarxa vurur...

İndi bir-iki kəlmə özümüzdən də deyək. Əvvəl mənə elə gəlirdi ki, bu son 20-30 ili biz sadəcə itirmişik. Amma indi görürəm ki, yox, bu illər heç də elə-belə keçməyib - çox pis vərdişlər qazanmışıq...

Bu illər ərzində bizə təlqin ediblər ki, seçki ondan ötrüdür ki, onu saxtalaşdırasan. Bizə aşılayıblar ki, bu demokratiyadır-filandır, bizim üçün deyil, xaricilərə, Avropa Şurasına-filana göstərmək üçündür...

O ki qaldı özümüzə, deyirlər ki, bizim “dədə-baba yolu”muz var - bu yolla da gedəcəyik və heç kim də bizi bu yoldan sapındıra bilməz. İndi biz də düz 22 ildir ki, həmin bu yolla gedirik. Ona görə də nə vaxtsa demokratiya yoluna üz tutsaq, bizim üçün çox çətin olacaq. Ona görə ki, bu illər ərzində siyasi vərdişlər qazanmadıq, demokratiyanı təcrübədən keçirə bilmədik...

Sonra da qayıdıb deyirlər ki, Şərq incə məsələdir. Yox, Şərq incə məsələ deyil və hətta çox asan bir məsələdir, bir şərtlə ki, adamlara mane olmayasan, onları doğru-dürüst yoldan sapındırmayasan...

Yeni MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015

# Millət dükanı



Zamin HACI
zaminhaci@mail.ru

**Mövzuya uyğun çox yaxşı bir mətn tapmışam, istəyirəm öncə onu sizinlə bölüşüm. Mətnin adı "Millətpərəstlik"dir. Müəllif və yazılma tarixini hələlik bildirmirəm, buyurun oxuyun.**

" - Millətpərəstlik bilirsənmi nədir?

- Yox!

- Bəs qulaq as deyim: Bax iki cür "millətpərəstlik" var. Biri qoçaq, biri də maymaq. O ki qoçaq millətpərəstdir - gedib bir dükan açır, yainki karxana bina eləyir. Adın qoyur "millət dükanı", yainki "millət fabrikası", başlayır yavaş-yavaş "millət qarpızı"; "millət papirosu", "millət bezi" satmağa. Bu "millətpərəst"in mətai də həmişə qeyrilərinkindən bir az baha olur. Bu da məlumdur ki, neçün, ondan ötrü ki, özgələrinin yalxu papiros, qarpız, bez və flan isə, bunun ki, "millət papirosu", "millət qarpızı", "millət bezi" və "millət flanı"dır. O ki, maymaq millətpərəstdir, o da bu qoçaqların sözlərinə inanıb, bir şahılıq qarpızı altı qəpiyə, acı "papirosu" "şirin" əvəzinə, 8 qəpiklik bezi 10 qəpiyə "millət" naminə alıb işlədir".

Hazırda Azərbaycanda hökm sürən saxta azərbaycançılıq, dövlətçilik, milli müstəqillik söhbətlərinin mahiyyətini bundan gözəl ifadə eləmək mümkün deyildir. Bütün oğrular xalqın cibinə girməklərini milli məsələ ilə əsaslandırırlar. Deyirlər biz suveren, müstəqil dövlətik, fəxr edirik azərbaycanlıyıq, öz millətimizin diktatoru başqa millətin demokratından doğmadır, millətimizin pisi də bizimdir və sairə.

Bu ucuz demaqoqiyaların mənbəyi aydındır. Yapistlər belə söhbətləri geniş yayıb "maymaq millətpərəstlərin" cibinə rahat girirlər. Beynəlxalq insan haqları konvensiyalarına da bu "millətçilik" donunu geyinib əməl etmirlər. Deyirlər bizim öz mənəvi dəyərlərimiz vardır, siyasi dustaqları buraxa bilmərik. Bizdə muğam var, nə bilim, kişi kişi ilə evlənmir, toyda yallı gedirik, qara zurna çalırıq, öz kababımız, öz it-pişiyimiz və sairə.

Milli məsələ də həmişə savadsız toplumların zəif yeri olmuşdur. Çünki savadsız adamın dünyagörüşü elə öz mağarasının daxilinə aiddir, qıraq aləm ona yaddır, yabançıdır, qorxuludur. Bu ibtidai qorxudan tutub insanları sürü kimi hara istəsən yönəldə bilirlər.

Müəllif "milli malın bahalığını" da gözəl qeyd edib, biz indi Azərbaycanda bunu yaşayırıq. Deyirsən nə üçün Bakıda dükan-bazar qonşu ölkələrə nisbətən od tutub yanır, deyirlər müstəqilik, müstəqillik bahalı şeydir. Soruşursan nə üçün yapist rəhbərlər dəbdəbə içində yaşayır, deyirlər onlar milli kadrlarımızdır, xarici ölkələrdə belə kəlləli adamlar tapılmır.

İndi gəlirəm yuxarıdakı mətnin müəllifinə. Saxta vətənpərvərliyin, urapatriotizmin, yalançı millətçiliyin mahiyyətini 5-6 cümlədə açan şəxs Məhəmməd Əmin Rəsulzadədir! Böyük öndərimiz bunu düz 109 il qabaq, "Təkamül" qəzetinin 30 dekabr, 1906-cı ildə çıxan 3-cü sayında yazıbdır.

Bayaq siyasi məhbuslardan yazdım, bir maraqlı müşahidəmi bölüşüm. Fikir verdinizsə bu Qurban bayramında mətbuat əfv mövzusuna demək olar heç toxunmadı. Səbəb sadədir: artıq cəmiyyət yapistlərdən hər hansı humanizm gözləmir. Hətta ən inadcıl adamlar da yoruldular. Bəs cəmiyyətdə bu cür nifrət ab-havasını davam etdirməyin, "müstəqil" repressiyanın axırı hara gedir? Heç yaxşı yerə getmir.

Sonda "biz müstəqil siyasət yürüdürük, heç kim bizə göstəriş verməsin" demaqoqiyası ilə zəhlə tökənlərin diqqətinə çatdırmaq istərdim ki, hazırda dünyada ən müstəqil dövlət... "İŞİD"-dir. Kim əllərinə keçsə başını kəsirlər, tutduqları ərazilərdə haranı istəsələr dağıdırlar. Öz geyim formaları, öz kitabları var, "öz pomidorları, öz musiqiləri" də öz yerində; heç bir insan haqları konvensiyasını qoz yerinə qoymurlar. Bütün dünya ilə döyüşürlər. Hətta BMT-ni də qəbul eləmirlər.

Yaxşı yadıma düşdü, həmçinin bir-biri ilə evlənən kişiləri damdan atıb öldürürlər. Əsl bizim mənəvi dəyərlərə uyğun milli müstəqillikləri var. Xoşunuza gəlirmi?

# "Biz Obama deyəni demirik, Obama biz deyəni deyir"

## İsa Qəmbər: "Hesab etmirik ki, beynəlxalq birliyin mövqeyi əsasında Azərbaycanda dəyişiklik baş verəcək. Dəyişiklik daxildən baş verməlidir"



**Milli-Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbərin "Yeni Müsavat" qəzetinə müsahibəsi.**

***- İsa bəy, dünya gündəminin əsas mövzularından biri ABŞ prezidenti Barak Obamanın BMT Baş Assambleyasındakı çıxışıdır. Obamanı dinlədikcə, belə təəssürat yaranır ki, çıxış edən Azərbaycanın müxalifət liderlərindən biridir. Siz bu çıxışı necə qarşıladız?***

- Obama fundamental dəyərlərdən danışdı. İnternetdən izlədim, Rusiyada, Belorusda, hətta Türkiyədə bəziləri belə reaksiya verirlər ki, Obama bizim ölkəmizi nəzərdə tutur, bizim problemlərimizi dilə gətirir. Barak Obama "hakimiyyətdə qalmaq üçün konstitusiyanı dəyişmək düzgün deyil" söyləyəndə göz önünə müxtəlif ölkələr gəlir. Məsələn, Azərbaycan vətəndaşı 2009-cu ilin referendumunu xatırlayır. Həmin referendumda yolverilməz dəyişiklik həyata keçirildi və bir şəxsin yalnız iki dəfə prezident olmaq yasağı aradan qaldırıldı. Obama eyni zamanda insan azadlıqları, siyasi məhbuslar, vətəndaş cəmiyyətinin önəmi ilə bağlı məsələlərə toxundu. Bu problemlər dünyanın bir sıra ölkələrində mövcuddur. Azərbaycana isə prezident Obamanın dediyi bütün cümlələr aiddir. Mən facebook profilimdə bu çıxışı müsavatçı vicdan məhbusu Yadigar Sadıqovun doğum gününə hədiyyə nitqi kimi qiymətləndirdiyimi yazdım. Bu gün Yadigar bəyin doğum günüdür. Yeri gəlmişkən, onu təbrik edirəm və bütün siyasi məhbuslara azadlıq arzulayıram. Bu çıxış Azərbaycanın bütün vicdan məhbuslarına bir mesajdır, onlara mənəvi dəstəkdir. 2009-cu ilin oktyabrında Obama ABŞ prezidenti qismində ilk dəfə BMT Baş Assambleyasının toplantısındakı çıxışında demişdi ki, mən Birləşmiş Ştatların problemləri ilə məşğul olacağam, demokratiya bizim üçün önəmlidir, ancaq hər ölkə öz daxilində demokratiya məsələlərini həll eləməlidir. 2010-cu ilin sentyabrından başlayaraq Barak Obama BMT Baş Assambleyasının toplantılarında 2009-cu ildəki mövqeyindən tam fərqli çıxışlar edir. O, bu il dediklərini əslində bu və ya başqa formada əvvəlki illərdə də deyib. Ancaq sözsüz ki, sonuncu çıxış fundamental dəyərlərə münasibət baxımından çox yüksək qiymətləndirilməlidir.

***- ABŞ-ın Obamadan öncəki prezidenti Corc Buş da deyirdi ki, azadlığı, demokratiyanı istəyən xalqlar onu alacaqlar. Bir sıra ölkələrdə, o sıradan Azərbaycanda bu çıxışı ABŞ-ın demokratik proseslərə açıq dəstək verəcəyi kimi alqışladılar. Ancaq olmadı... Sizcə, Obamanın çıxışı sadəcə gerçəklərin ən yüksək kürsüdən ifadəsidirmi, yoxsa Ağ Ev bu problemləri yaradanlara qarşı ortaya sərt mövqe qoyacaq?***

- Burada iki önəmli məqam var. Birincisi, aydındır ki, nə Corc Buşun, nə də Barak Obamanın çıxışı heç bir ölkədə avtomatik dəyişikliklərə gətirib çıxarmayacaq. Bunun üçün hər bir ölkənin cəmiyyəti, vətəndaşları ortaya iradə, fədakarlıq qoymalı, öz ölkələrinin gələcəyi üçün vacib addımları atmalıdırlar. Bu, birmənalı şəkildə belədir. Biz hesab etmirik ki, beynəlxalq birliyin mövqeyi əsasında Azərbaycanda dəyişiklik baş verəcək. Biz düşünürük ki, beynəlxalq birlik getdikcə artan şəkildə demokratiyanın sadəcə şüar deyil, zərurət olduğunu qəbul edir. Tutaq ki, 20-30, hətta 50 il öncə hər bir ölkə demokratiyanı özü üçün zəruri hesab edirdi, düşünürdü ki, başqa ölkələrdə də demokratiya olsa, yaxşı olar, olmasa faciə deyil. Son illərdə bu baxış dəyişib. Artıq dünyanın kiçik olduğunu hər kəs dərk edir. Dünyanın harasındasa ədalətsizlik, haqsızlıq, korrupsiya varsa, bunun bütün dünyaya təsir elədiyini qəbul eləməyə başlayırlar. Mən bunu bir neçə dəfə xatırlatmışam, ötən əsrin 50-ci illərində Məhəmməd Əmin Rəsulzadə deyirdi ki, nə qədər ki, dünyada əsir insan, əsir millət var, dünya



### "Gedənlərin itkisi daha böyükdür"

həqiqi azadlıqdan və həqiqi təhlükəsizlikdən danışa bilməz. Həmin fikri bu gün bütün məsuliyyətli siyasətçilər, dövlət xadimləri qəbul edir. Bu baxımdan, biz Obama deyəni demirik, Obama biz deyəni deyir. Çünki ağlın yolu birdir. Bu fikri Azərbaycan hakimiyyəti nə qədər tez dərk etsə, ya da cəmiyyət bu fikrin sadəcə həqiqət yox, həm də hərəkət etmək üçün təlimat olduğunu qəbul etsə, dəyişikliklər bir o qədər tez baş tutacaq. İnsanlar dərk etməlidirlər ki, azad olmaq istəyirlərsə, mübarizə aparmalıdırlar, ləyaqətli yaşamaq istəyirlərsə, özləri ləyaqətli davranış sərgiləməlidirlər. Cəmiyyət bunu özü üçün fəaliyyət proqramına çevirsə, müsbət dəyişikliklər sürətlə həyata keçə bilər.

***- Bir müddətdir gərgin olan Qərb-Azərbaycan münasibətlərinə baxışınız necədir? Avropa strukturları Azərbaycandakı idarəçiliyi sərt tənqid edir, ATƏT ilk dəfə olaraq seçkiləri müşahidə etməyəcək. Bütün bunlar, sizcə, yeni formalaşacaq parlamentin legitimliyini sual altına qoyurmu? Müxalifət düşərgəsi bu halda hansı addımlar atacaq? Ümumiyyətlə, müxalif düşərgənin 2 noyabr üçün hansısa planları varmı?***

- Müxalifət adından danışmaq istəmirəm. Mən Milli Strateji Düşüncə Mərkəzinin sədriyəm. Bu qurumda ölkənin aktual strateji məsələlərini müzakirə edib müəyyən tövsiyələr hazırlayaraq cəmiyyətə təqdim etməyə çalışırıq. Seçkidən sonrakı dönəm üçün də təbii, müəyyən ideyalarımız var. Amma eyni zamanda heç kimdə belə bir təsəvvür olmamalıdır ki, kimsə, hansısa partiya, ya qurum bir plan hazırlayacaq və həmin plan üzrə 1 noyabrdan sonra Azərbaycanda hadisələr ildırım sürəti ilə inkişaf etməyə başlayacaq, dəyişikliklər

> **"Çoxları dərk edir ki, belə gedə bilməz, vəziyyət dəyişməlidir. Bunu bu gün təkcə müxalifət, müstəqil insanlar demirlər. Bu gerçəkliyi artıq hakimiyyətin içərisində də dərk etməyə başlayırlar. Sadəcə, bu dəyişikliklər istiqamətində addımlar atmağa iradələri çatmır"**

bir-birini əvəz edəcək. Yenə deyirəm, bu, kollektiv iradədən, kütləvi fəallıqdan asılı olan məsələdir. Əgər biz Azərbaycanda azadlıqların, demokratiyanın bərqərar olmasını, xalqın azad-xoşbəxt yaşamasını istəyiriksə, bunun üçün çalışmalarımız davam etməlidir və edəcək. Əminəm ki, gerçək müxalifət partiyaları, gerçək demokratik qüvvələr də bu yöndə 1 noyabrdan sonra da çalışmalarını davam etdirəcəklər. Gerçəkliyin bir tərəfi də ondan ibarətdir ki, artıq Azərbaycanda çoxları bu şəkildə davam etməyin mümkünsüzlüyünü dərk etməyə başlayıb. Çoxları dərk edir ki, belə gedə bilməz, vəziyyət dəyişməlidir. Bunu bu gün təkcə müxalifət, müstəqil insanlar demirlər. Bu gerçəkliyi artıq hakimiyyətin içərisində də dərk etməyə başlayırlar. Sadəcə, bu dəyişikliklər istiqamətində addımlar atmağa iradələri çatmır.

Soruşurşunuz ki, yeni formalaşacaq parlamentin legitimliyi sual altında olacaqmı? Parlamentin legitimliyi hətta sual altında da deyil. Təəssüf ki, parlamentin legitimliyi sadəcə yoxdur. Əsil sual budur ki, beynəlxalq təşkilatlar Azərbaycan parlamentinin qeyri-legitimliyindən irəli gələn çətin, amma zəruri addımları atmağa özlərində iradə tapacaqlarmı?!

***- Sizin də namizədliyinizi qeydə almadılar. Hansı addımları atmağı düşünürsünüz?***

- Qeydə almadılar demək bir az tezdi. Nümayəndələrim imza vərəqələrini və digər zəruri sənədləri Dairə Seçki Komissiyasına təqdim edərkən oradan bildiriblər ki, MSK ilə əlaqə sistemi çalışmır, ona görə sənədlərimizi qəbul edə bilməyəcəklər. Öncə onu deyim ki, bu, ciddi qanun pozuntusudur. Çünki seçki kampaniyası dönəmində seçki komissiyaları fasiləsiz işləməlidirlər. Ancaq 1 gün sonra bizim sənədləri qəbul ediblər. Odur ki, mənim seçkiyə buraxılmadığımı demək, hələlik tezdir. Proses göstərəcək...

*(Sentyabrın 29-da axşam saatlarında bəlli oldu ki, İsa Qəmbərin namizədliyi qeydə alınıb - red.)*

Əslində mənim seçkidə iştirakımın məqsədi prosesdə iştirakdır, prosesi gerçək bir mübarizəyə çevirmək, cəmiyyətlə təmaslar üçün, cəmiyyəti fəallaşdırmaq üçün bütün imkanlardan, xüsusən seçki prosesinin verdiyi məhdud imkanlardan istifadə etməkdir. Bu baxımdan hakimiyyət hansısa mərhələdə mənim namizədliyimə əngəl yaradacaqsa, bu, mənim üçün heç bir problem deyil, hakimiyyətin problemidir.

***- Azərbaycan üçün çox önəmli 2018-ci il gəlir - prezident seçkisi ili. Proses göstərir ki, bu parlament də müxalifətsiz olacaq. 1 noyabr seçkisini artıq itirilmiş şans saymaq olarmı?***

- Çox təəssüf, artıq ona doğru gedir. Hakimiyyət bu seçkini də faktiki olaraq Azərbaycanda müsbət dəyişikliklərə keçid imkanı kimi itirdi. Ancaq bu o demək deyil ki, bu şəkildə davam edəcək. Ola bilər, biz bu sözləri müxtəlif mərhələlərdə demişik deyə indi həmin sözlər bir qədər təkrara bənzəyir. Amma hesab edirəm ki, Azərbaycanda dəyişikliklər qaçılmazdır və bu dəyişikliklər baş verəcək. Bu, 2018-ci ildə də baş verə bilər, ona qədər də.

> **"Heç kimdə belə bir təsəvvür olmamalıdır ki, kimsə, hansısa partiya, ya qurum bir plan hazırlayacaq və həmin plan üzrə 1 noyabrdan sonra Azərbaycanda hadisələr ildırım sürəti ilə inkişaf etməyə başlayacaq, dəyişikliklər bir-birini əvəz edəcək"**

***- İsa bəy, Müsavat Partiyasının qurultayından düz 1 il keçir. Partiya həyatında nələr dəyişib? Başqanlıqdan getsəniz də qərargahdasınız. Bu, eyni zamanda sizə partiya həyatını daha yaxından izləmək imkanı verir. Bir il öncə siz qurultaydan sonrakı dönəmi məhz belə təsəvvür edirdiniz?***

- Proses aşağı-yuxarı düşündüyümüz kimidir. Müsavat Partiyası 1 il öncə Azərbaycan cəmiyyətinə çox önəmli bir nümunə sərgilədi. Demokratiya baxımından çox önəmli addımlar atıldı. Bu, həm hakimiyyətə mesaj idi, həm cəmiyyətə, həm də bütün demokratik qüvvələrə mesaj idi ki, demokratiya uğrunda mübarizə apardığımızı iddia ediriksə, özümüz də həmin meyarlara uyğun fəaliyyət göstərməliyik. Hakimiyyətdən azad, ədalətli seçki tələb ediriksə, alternativlərə bərabər imkanlar yaratmaq tələb ediriksə, paritet əsasda seçki komissiyaları tələb ediriksə, gizli səsvermə, səslərin şəffaf sayılmasını tələb ediriksə, bu addımları ilk növbədə özümüz atmalıyıq. Müsavat sadaladığım bütün məqamlarda ölkəyə nümunə göstərdi. Əgər bu gün cəmiyyətdə bu mövzu müzakirə olunursa, əgər bu gün digər siyasi qüvvələrin toplantıları keçirilərkən ən çox müzakirə edilən məsələ səsvermənin gizli, yoxsa açıq keçirilməsi məsələsidirsə, demək, Müsavat Partiyasının qurultayı hədəfinə çatıb. Biz bu dəyərlərin qaçılmaz olduğunu, müxalifətdə və ya hakimiyyətdə olmasından asılı olmayaraq əvvəl-axır bütün qüvvələrin bu dəyərləri qəbul etməsinin zəruriliyini faktiki olaraq cəmiyyətə təqdim etdik.

Mənim qərargahda olmağıma gəldikdə, ona görə burdayam ki, Milli Strateji Düşüncə Mərkəzi üçün 1 ildir ofis tapa bilmirik. 1 ildir ofis axtarıram. Münasib variantlar olsa da, son anda anlaşmaq mümkün olmur. Cəmiyyətə o qədər basqılar olub ki, hər kəs ehtiyat edir. Məntiq baxımından şərtlər mülkiyyət sahibləri üçün tam uyğun olsa da, biləndə ki, həmin ofisi mən istəyirəm, çəkinirlər. Buna məcburdurlar. Düşünürlər ki, mülkiyyətlərini, hətta azadlıqlarını itirə bilərlər, hakimiyyət onlar üçün başqa problemlər yarada bilər. Təəssüf ki, onların narahatlıqları gerçək narahatlıqlardır. Bu durumu hakimiyyət yaradıb. Bu səbəbdən biz Milli Strateji Düşüncə Mərkəzinin fəaliyyətini ayrıca bir ofisdə qura bilməmişik. Sağ olsun, Müsavat Partiyasının rəhbərliyi, bizə şərait yaradıb, bu işi burda davam etdiririk. Yuxarı-aşağı gözlədiyimiz proseslər gedir. Müsavat Partiyasında yetərincə önəmli gəncləşmə prosesi davam edir. Faktiki olaraq bu gün partiya rəhbərliyində Müsavat Partiyasının əsasən orta yaşlıları təmsil olunur. Yetərincə çevik, dinamik idarəçilik formalaşdırılıb. Partiya həm öz Proqram və Nizamnaməsinə, həm də fəaliyyət istiqamətləri haqqında planlarına uyğun şəkildə işini davam etdirir.

***- Qurultaydan sonra Müsavat Partiyasından qopmalar da oldu. Siz bu prosesi təmizlənmə, yoxsa itki sayırsınız?***

- Mən hər bir Azərbaycan vətəndaşını yüksək qiymətləndirirəm. Hər bir müsavatçını da yüksək qiymətləndirmişəm. Təbii, Müsavat Partiyasından kimsə gedirsə, mən bunu Müsavat üçün itki sayıram. İstər həmin şəxs Müsavata dünən gəlmiş gənc olsun, istər 15-20 ilini partiyaya vermiş şəxs, fərq etməz. Onların fəaliyyətləri partiya üçün böyük ola bilər, nisbətən az ola bilər. Ancaq hər bir müsavatçının partiyadan getməsi itkidir. Eyni zamanda partiyadan gedən hər bir adam da Müsavat Partiyasını itirib. İtki baxımından gedənlərin itkisi daha böyükdür. Bütövlükdə isə bu, gedənlərin, Müsavat Partiyasının itkisi olmaqla yanaşı, cəmiyyətin itkisidir. Çünki rejim elə bir durum yaradıb ki, gerçəkdən müxalifət sıralarında olub fəaliyyət göstərmək gündən-günə çətinləşir. Bu durum müxalifətə də aiddir, həqiqi azad mediaya da aiddir, həqiqi müstəqil vətəndaş cəmiyyəti institutlarına da aiddir. Hakimiyyətin yaratdığı dözülməz mühit bütün bu sahələrdə itkilərə gətirib çıxarır və bu itkilər bütövlükdə cəmiyyətin itkisidir. Çünki cəmiyyətin müstəqil yaşamaq, öz potensialını ortaya qoymaq imkanları məhdudlaşdırılır, bütövlükdə Azərbaycan xalqı, Azərbaycan dövləti itirir.

***- Azərbaycan Xalq Cəbhəsi Partiyası da bir neçə gün öncə qurultay keçirdi. Siz Azərbaycan Xalq Cəbhəsi yaranandan ilk dəfədir ki, həmin qurumun qurultayında iştirak etmədiniz. Dəvət olunmamağınız sizə necə təsir elədi?***

- Burada da müxtəlif məqamlar diqqətə alınmalıdır. Siyasi partiyaların qurultayları müxtəlif xarakterli olur. Sırf işgüzar xarakterli qurultaylar olur. Məsələn, Müsavat Partiyasının 2014-cü il sentyabrın 27-də keçirdiyi qurultay sırf işgüzar qurultay idi. Ancaq şou xarakterli qurultaylar da var. Məsələn, ABŞ-da respublikaçıların, ya da demokratların qurultayları daha çox şou xarakterli olur. Bu, bir növ artıq həll edilmiş məsələlərin xalqa açıqlanması, təqdim edilməsi mərasimləridir. İşgüzar qurultayla şou arasında variantlar da var, təbii. Bir partiyanın qurultayında başqa partiyaların nümayəndələrinin iştirak edib-etməməsi məsələsi özü-özlüyündə diskussiyalılıq bir məsələdir. Azərbaycandakı siyasi partiyaların böyük çoxluğu zamanında Elçibəyin liderliyi ilə yaratdığımız Azərbaycan Xalq Cəbhəsindən çıxdığı, Azərbaycan xalq hərəkatından doğduğu üçün uzun illər belə ənənə oldu ki, bu partiyaların hər hansı biri qurultay keçirsə, digər bütün partiyaların rəhbərləri qonaq qismində dəvət olunsun, hətta çıxış eləsin. Bu, maraqlı bir ənənədir, ancaq bu, partiyaların işgüzar qurultay keçirməsi baxımından o qədər də səmərəli yanaşma deyil.

***- İsa bəy, bu dəvətlər, iştiraklar həm də bir həmrəylik ovqatı yaratmaq, umu-küsüləri aradan qaldırmaq şansı yaratmırmı?***

(ardı var)

❑ Aygün MURADXANLI



> **"Təəssüf ki, hakimiyyət bu seçkini də faktiki olaraq Azərbaycanda müsbət dəyişikliklərə keçid imkanı kimi itirdi"**

> **"Milli Strateji Düşüncə Mərkəzi üçün 1 ildir ofis tapa bilmirik. Məntiq baxımından şərtlər mülkiyyət sahibləri üçün tam uyğun olsa da, biləndə ki, həmin ofisi mən istəyirəm, çəkinirlər"**



# Güney Qafqazla bağlı şok "Reyqan" planı - iddia

## Ekspertə görə, Vaşinqton regiona yönəlik 5 illik böyük bir əməliyyat layihəsi hazırlayıb; hədəf Qafqazdan Rusiyanı birdəfəlik çıxarmaqdır...

**"Bir müddət öncə Almaniya Bundestaqının (parlamentin-red.) Ermənistanı işğalçı olaraq qəbul etməsi o demək idi ki, artıq Avropa Birliyi, BMT və digər mühüm əhəmiyyətli qurumlar Ermənistanı işğalçı kimi tanıyıb". Bu fikirləri musavat.com-a NATO Əməkdaşlıq İnstitutunun prezidenti Fərrux Məmmədov deyib.**

O bildirib ki, rəsmi Berlinin qəbul etdiyi həmin sənəd əslində İrəvanın işğalçı olmağının sübutudur: "Sərkisyan özü də bunu dili ilə təsdiqlədi. Əslinə qalsa, bu, Rusiyanın bölgədə aktivliyinin qarşısını almaq məqsədi ilə qəbul edilmiş sənəddir. Bunun ardınca Sərkisyanın Dağlıq Qarabağla bağlı məlum bəyanat verməsinin yalnız bir səbəbi var - bu, Putinin ABŞ səfəri zamanı Obama ilə masaya oturmamışdan əvvəl "əlinin" gücləndirilməsinə hesablanıb. O, bununla Cənubi Qafqazda hökmran olduğunu göstərir. Yəni demək istəyir ki, əgər siz mənimlə Ukrayna, Suriya, İran və digər Yaxın Şərq ölkələri məsələlərində hesablaşmasanız, mən Cənubi Qafqazda ikinci Ukrayna ssenarisini yaşada bilərəm. Bir sözlə, mən Qarabağla kifayətlənməyərək, nəinki Azərbaycanın digər ərazilərini, Gürcüstanı da işğal edə bilərəm. Bu, bir növ Sərkisyanın dili ilə Kremlin açıq mesajıdır".

**F.Məmmədov Obama ilə Putinin görüşündə əsas üstün tərəfin ABŞ olduğunu bildirib:** "Putinin güvəndiyi yeganə şey Rusiya ordusudur. Bütün bu atışmaların sərf etdiyi yeganə tərəf də Rusiyadır. Lakin burada xüsusi bir məqam var. Nyu-York görüşü Putinin öncədən məğlub olaraq, getdiyi görüşdür. Obama daha güclüdür. Doğrudur, Rusiyanın bir sıra üstünlükləri var, amma beynəlxalq birlik ABŞ-ın tərəfindədir. Ən önəmli məqam isə Putinin Cənubi Qafqazda hökmranlığını itirməyə başlamasıdır. Bunun səbəblərindən biri Gürcüstanın açıq şəkildə NATO və Avropa Birliyi xətti tutmasıdır. Putin narahatlığı da bundandır. Amerika ordusu əgər Qara dənizdən regiona gəlsə, bu, Cənubi Qafqaz xalqları üçün yeni mərhələ ola bilər. Bu da Rusiyanın regiondan çıxmasını sürətləndirəcək".

**Politoloq bunu da xüsusi olaraq qeyd edib ki, Amerikanın bu layihə adı altında Cənubi Qafqazla bağlı böyük bir əməliyyat layihəsi var. O, əməliyyatın detallarını bu cür izah edib:** "Bu, beşillik əməliyyatdır. Əməliyyatın adı "Reyqan" adlanır. "Reyqan" əməliyyatının əsas məqsədi Cənubi Qafqaz ölkələrini Rusiya təhlükəsindən xilas etməkdir. Çox güman ki, Vaşinqton bunun üçün külli miqdarda pul ayırıb. Əməliyyatın məqsədləri sırasında Cənubi Qafqaz ölkələrini müdafiə altına almaq, milli təhlükəsizliyini qorumaq, iqtisadi inkişafı təmin etmək, onlara hərbi və siyasi dəstək olmaq məsələləri də var. "Reyqan" əməliyyatı nəinki Cənubi Qafqaz, hətta onun bir qolu kimi İrana da hesablanıb. ABŞ Tehranla mümkün danışıqlardan sonra gələcəkdə dünya bazarında mühüm dəyişikliklər həyata keçirmək niyyətindədir. Bu isə Rusiyanın çökdürülməsinə gətirib çıxaracaq. Əməliyyatın adının "Reyqan" qoyulmasının da xüsusi bir nüansı var. Çünki SSRİ-nin dağılmasında və kapitalizmin inkişafında əsas rol oynayan şəxslərdən biri məhz sabiq prezident Ronald Reyqandır. Ona görə də həmin əməliyyatı belə adlandırıblar".

Yada salaq ki, Ermənistan prezidenti Serj Sərkisyan ötən həftə etdiyi çıxışında Dağlıq Qarabağın Ermənistanın bir parçası olduğunu söyləməklə İrəvanın işğalçı olduğunu rəsmən təsdiqləmişdi.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 215 (6242) 30 sentyabr 2015



# Obama və müstəbidlər

Xalid KAZIMLI

**Obamanın BMT-nin Baş Assambleyasındakı çıxışı gerçəkdən möhtəşəmdir. Müəllim olduqca həssas məqamlara toxunur, önəmli mesajlar verir.**

ABŞ prezidenti üzünü müasir diktatorlara tutub deyir: "Sən öz opponentlərini məhbus edə bilərsən, amma ideyaları məhbus etmək olmaz. Sən informasiyaya girişi nəzarətə ala bilərsən, amma yalanı həqiqətə çevirə bilməzsən". Haqlıdır.

Dünya təcrübəsi göstərir ki, gün ötür, dövran dəyişir, opponentlər azadlığa çıxır, onlar əvvəlki kimi fəal olsalar da, olmasalar da, sonda o parlaq ideyalar və haqq-ədalət qalib gəlir. Amma nə vaxt? Bu işə ömürlərini həsr edənlərin ömrü başa yetəndən sonra.

**Obama deyir:** "Hakimiyyətdə qalmaq üçün konstitusiyaları dəyişən liderlər əslində etiraf edirlər ki, öz xalqları üçün uğurlu bir ölkə qurmaqda iflasa uğrayıblar. Çünki bizim heç birimiz əbədi deyilik". Yenə haqlıdır.

Təəssüf ki, hakimiyyət başında olan diktatorlar əbədi olmadıqları fikrini özlərinə yaxın qoymurlar. Söz yox, onlar bilirlər ki, sonda "səksən, doxsan, bir gün yoxsan" hadisəsi baş verəcək, ancaq onlar öz hakimiyyətlərini oğullarına, nəvələrinə ötürməklə əbədi sülalə rejimi qurmaq istəyirlər. Tarixdə 300, 500 il hökmranlıq edən siyasi sülalələr olub.

Hazırda Şimali Koreyadakı Kim sülaləsi 60 ildir ki, baba-oğul-nəvə estafeti üzrə dövranını sürüb gedir. Həm də bu ölkədə artıq elə bir atmosfer yaradılıb ki, hakimiyyətin hökmdar ailəsindən olan daha sonrakı şəxslərə ötürülməsi problem deyil. Kənardan müdaxilə və nəsə böyük bir sarsıntı olmasa, Şimali Koreyada hakimiyyət 50 il sonra da dəyişməyəcək, müti siyasilər, kölə generallar, zombiləşmiş xalq dövlətin qurucusu Kim İr Senin nəslindən olan gənc diktatorlara biət etməkdə davam edəcəklər.

**ABŞ prezidenti deyib:** "Müxalifətin seçki vasitəsilə, dinc yolla hakimiyyətə gəlmək imkanı olanda, ölkə yeni ideyalar qazanır".

Bu da qızıl kimi sözlərdir, tam həqiqəti əks etdirir. Sadəcə, onu nəzərə almaq lazımdır ki, azad, şəffaf, qanuni seçkilər olmasa, nəinki müxalifət, hətta hakimiyyət komandasının daxilindəki daha mötədil qüvvələrin hakimiyyətə gəlmək, ölkəyə "yeni ideyalar" qazandırmaq şansı yoxdur.

Barak Obama bu dediklərindən başqa da dəyərli sözlər deyib, məsələn bildirib ki, "bu günün avtoritarı sabahın inqilabına qığılcımdır" və sair və ilaxır.

Fəqət, müasir dünyada bu qızıl kimi sözlərə qulaq asan yoxdur, BMT üzvü olan 200 dövlətin üçdə ikisi məhz diktatorlar tərəfindən idarə olunur. Svazilenddəki III Msvati yeri gəlsə Barak Obamanı heç tanımaq belə istəmir. Venesuelada Modero da, Zimbabvedəki Muqabe də eləcə.

Demokratiya, azad seçkilər, qanunun aliliyi-filan kimi şeylər diktatorlara sərf eləmir. Onlara görə, hüdudsuz səlahiyyətlər, intəhasız sərvət sahibi olmaq daha yaxşıdır. Belə olanda despotlar ölkəni öz şəxsi mülkü kimi idarə edə bilir, heç kim maneçilik törədə bilmir, əngəl yaratmaq istəyənlər üçün zindan, qurğuşun güllə və ölkədən didərgin salınmaq kimi perspektivlər var.

Şərq-müsəlman dünyası bir neçə ölkə istisna olmaqla, tam olaraq Obamanın dediklərinə qarşıdır.Nə demokratiya? Nə insan haqları? Nə media azadlığı? Nə seçki? Hamı hökmdara tabe olmalıdır, əsas məsələ onun kimi seçməsidir, vəssalam. Düşüncə budur.

Obama isə dünyanı sarmış müstəbidlərə dözmək zorundadır. Yenə onun sələfləri (Klinton və Buş) dünyada demokratiyanın genişlənməsi üçün daha ciddi səylər göstərirdilər, demokratiya istəyən, müstəbiddən qurtulmağa çalışan xalqlara maddi-mənəvi, siyasi dəstək, əsasən də vəd verirdilər. Obama gələndən sonra isə bu istiqamətdə gedən proses dayandı və çarx geri döndü.

Bəlkə də despot rejimlərinin müqaviməti gözlənildiyindən də güclü oldu, ona görə belə alındı. Ancaq hiss olunur ki, 7 il əvvəl ABŞ prezidenti postunda Obama deyil, Con Makkeyn otursaydı, indi dünyanın rəngi bir az başqa olardı, ən azı ABŞ-ın ən kiçik ştatı boyda olmayan istibdad yuvaları ona dil çıxarmazdı.

ABŞ ideal dövlət deyil, xarici siyasətində əyintilər, pozuntular, qeyri-ardıcıllıqlar var, amma bir də özünü ona qarşı qızğın mübariz kimi göstərən ölkələrə baxın. Heç biri demokratik dövlət deyil, heç birində insan azadlıqlarına riayət yoxdur. Hamısı bu və ya digər dərəcədə despotizm yuvasıdır.

Obama üzünü bu dövlətlərə tutub danışır və onlar da ona qulaq asmırlar, çünki ABŞ-ın onlara heç nə edə bilməyəcəyini anlayırlar. ABŞ isə deyildiyi qədər olsa, nələrsə edə bilər.



# Obama və Putinin tarixi görüşü gərgin "heç-heçə" ilə bitdi

## İki saata yaxın çəkən görüş nə Suriya, nə də Ukrayna məsələsində uzlaşmaya gətirmədi; Rusiya liderinin "Suriya məsələsinə kömək əvəzinə sanksiya rejimini yumşaltmaq" taktikası da boşa çıxdi...

**Nyu-Yorkda BMT Baş Məclisinin 70-ci yubiley sessiyası çərçivəsində ABŞ və Rusiya prezidentlərinin görüşü baş tutdu. Beynəlxalq gündəliyin əsas mövzularından sayılan və xüsusi diqqətdə olan bu görüş planlaşdırılandan 55 dəqiqəlik vaxtdan, demək olar, iki dəfə çox - təxminən iki saat çəkdi. Bu da heç şübhəsiz, görüşün əhəmiyyəti və müzakirə edilən mövzuların aktuallığına dəlalət edirdi.**

Görüşdən qabaq iki lider BMT Baş katibi Pan Gi Munun dünya liderlərinin şərəfinə təşkil elədiyi yemək ziyafəti zamanı bir araya gəliblər. Lakin ziyafətdə Obama ilə Putin arasında baş verən soyuq münasibət diqqətdən yayınmayıb. Az sonra Pan Gi Mun stulundan qalxaraq gedib və onları faktiki, yanbayan qoyub. Mərasim zamanı liderlər badə qaldıraraq sağlıq deyiblər.

Qeyd edək ki, Amerika və Rusiya liderləri - Barak Obama və Vladimir Putin 2013-cü ilin yayından sonra Ukrayna böhranı ilə bağlı bir araya gəlməmişdilər, yalnız bir neçə dəfə telefonla ünsiyyətdə olmuşdular və ilk dəfə idi ki, tet-a-tet görüşürdülər.

Gözlənildiyi kimi, ikitərəfli təmasın əsas müzakirə mövzusu Suriya və Ukrayna oldu. İlkin informasiyalara görə, hər iki məsələ üzrə Birləşmiş Ştatlar və Rusiya arasında fikir ayrılığı qalmaqdadır.

***

İki ölkənin rəhbərləri BMT-nin mənzil-qərargahında - yəni beynəlxalq qanunlara görə neytral ərazidə görüşüb. Danışıqlardan dərhal sonra Vladimir Putin bildirib ki, "əsas diqqət mərkəzində olan məsələ Suriyadakı situasiya və bu konfliktin nizamlanmasında Rusiyanın iştirakı, həmçinin Ukraynanın şərqindəki münaqişə olub".

ABŞ prezidenti administrasiyanın nümayəndəsinin sözlərinə görə, tərəflər vaxtın yarısını Ukraynadakı vəziyyətə, başqa yarısını isə - Suriya münaqişəsinə həsr edib. Rusiya prezidenti görüşü çox "faydalı və açıq" adlandırıb.

"Bugünkü *(dünənki-red.)* söhbət çox konstruktiv, işgüzar və nə qədər təəccüblü də olsa, çox açıq oldu", - deyə Putin jurnalistlərə açıqlamasında qeyd edib. "Biz çoxlu təmas nöqtəsi tapdıq, ancaq fikir ayırılıqları da qalır" deyən Rusiya prezidenti daha sonra bildirib: "Bizim amerikalı tərəfdaşlarımız bir çox məsələlər üzrə, o cümlədən Ukraynadakı situasiyanın nizamlanması və Suriya tematikası üzrə öz mövqelərini kifayət qədər açıq ifadə elədilər". Onun sözlərinə görə, Obama Ukraynada baş verənlərlə bağlı tam xəbərdardır və işin içindədir.

***

Görüşdə diqqət yönəldiləcək prinsipial məqamlardan biri də Suriya rejimin başçısı Bəşər Əsədlə bağlı olub. Məlumatlara görə, Obama və Putin Bəşər Əsədin rolu və gələcək taleyi ilə bağlı məsələdə bir-birinə zidd mövqe sərgiləyiblər.

Bundan əlavə, Ağ Ev rəsmisinin sözlərinə görə, Barak Obama Putinə Ukraynanın şərqi ilə bağlı əldə edilmiş Minsk anlaşmasının yerinə yetirilməsinin gedişi, o cümlədən qondarma DXR və LXR rəhbərliklərinin yerli seçkilər keçirmək niyyəti ilə əlaqədar öz narahatlığını çatdırıb.





Danışıqlar bitdikdən sonra Suriya məsələsinə toxunan Putin qeyd edib ki, suriyalıların taleyini suriyalılar özləri müəyyən eləməlidir. O, Rusiya silahlı qüvvələrinin Suriyada quru əməliyyatlarda iştirak etməyəcəyini bildirib. Eyni zamanda təsdiq edib ki, Moskva İSİD-ə qarşı hava əməliyyatlarında ölkəsinin iştirakının mümkünlüyünü nəzərdən keçirir.

Ancaq Putinin sözlərinə görə, bu əməliyyatlar beynəlxalq normalara uyğun olmalıdır: o hesab edir ki, hava hücumlarının həyata keçirilməsi Suriya hökumətinin müvafiq xahişi olmalıdır.

Kreml başçısı görüşdə habelə, son vaxtlar Vaşinqtonla pisləşən münasibətləri bərpa eləməyə hazır olduğunu söyləyib. "Biz həmişə münasibətləri inkişaf etdirməyə, onları tam həcmdə bərpa etməyə hazırıq" - vurğulayıb Rusiya lideri.

***

Qeyd edək ki, görüşdən az öncə hər iki prezident BMT Baş Məclisinin tribunasından çıxış eləmiş, bir sıra beynəlxalq məsələlər, o cümlədən Suriya məsələsi üzrə bir-birinə diametral zidd mövqe sərgiləmişdilər. Bununla belə, siyasi müşahidəçilərə görə, hər cür fikir ayrılıqlarına rəğmən, tərəflər terrorizmlə mübarizədə əməkdaşlığın zəruriliyini yaxşı başa düşür.

Öz növbəsində ABŞ lideri bəyan edib ki, Bəşər Əsəd hakimiyyətdə qaldıqca Suriya böhranın həlli mümkün olmayacaq. Putin isə Əsədə kömək etməyə çağırıb, çünki onun fikrincə, "Bəşər Əsəd ölkədə yeganə legitim liderdir". Kreml başçısı həmçinin Birləşmiş Ştatların "terrorizmlə real şəkildə mübarizə aparan" Suriyanın indiki hökuməti ilə əməkdaşlıqdan imtinasını "səhv" addım adlandırıb.

Lakin Obama hesab edir ki, öz xalqına qarşı müharibə aparan Bəşər Əsəd Suriyada barışa yardımçı ola bilməz və onun bunca törətdiyi ağır cinayətlərdən sonra Suriya diktatorunun geriyə yolu bağlanıb. Ağ Ev rəhbəri Suriyada hakimiyyətin mütəşəkkil şəkildə başqa bir siyasətçiyə keçməsinə çağırıb. Bu zaman hər iki lider bir daha İŞİD-lə birgə mübarizənin vacibliyi məsələsində eyni mövqe sərgiləyiblər.

***

Beləliklə, ABŞ və Rusiya prezidentlərinin görüşü ciddi nəticə hasil olmadan, idman termini ilə desək, gərgin "heç-heçə" ilə yekunlaşıb. Bir çox təhlilçilərə görə, bu görüş daha çox Putinə lazım idi və görüşdən öncə də Ağ Ev rəsmisi açıqlama yaymışdı ki, təmasa daha çox Putin can atır.

Bu görüş Rusiya başçısının ilk növbədə ölkəsinin dünyada təklənmədiyini nümayiş etdirmək və Suriya məsələsində Qərbə kömək qarşılığında sanksiyaları yumşaltmaq niyyəti güdürdü. Çunki Moskva rəsmilərinə görə, Suriya böhranın həlli Qərbi miqrant problemindən də qurtara bilərdi.

Göründüyü kimi, hər iki məsələdə anlaşma baş tutmayıb və Putinin ümidləri boşa çıxıb.

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015

# Hacı İbrahimin Xəzərdə tikdirdiyi şəhərin son halı

## Nehrəmli iş adamı pul dalınca Çinə gedir; "Bu əfsanəvi şəhərin tikintisi davam edəcək. Ölkədən qaçmağa hazırlaşdığım haqda deyilənlər tam əsassızdır"









**"Avesta" Konserninin prezidenti, "Xəzər Adaları" layihəsinin müəllifi Hacı İbrahim Nehrəmlinin ölkədən qaçmaq istəməsi ilə bağlı xəbərlər yayılıb. Buna səbəb kimi onun Beynəlxalq Banka 450 milyon manat kredit borcunun olması göstərilir. Guya tanınan iş adamı bu borcunu ödəmək istəmədiyi üçün ölkədən qaçmağı planlaşdırır.**

Hacı İbrahim musavat.com-a bildirib ki, haqqında yayılan məlumatlar cəfəngiyyatdır: "Mənim Azərbaycandan qaçmağım haqda yayılmış xəbər tam əsassız və yalandır. Kredit borcum var, bunu danmıram. Amma bu borcu ödəyəcək imkanlarım da var. Mən indinin biznesmeni deyiləm. Hələ yenidənqurma dövründən iş sektorunda öz sözünü demiş adamam. Çox iqtisadi böhranlar yaşamışıq. Hamısından da alnımız açıq, üzümüz ağ çıxmışıq. İnşallah, bu dəfə də belə olar. Bugünlərdə Çin şirkəti ilə müqavilə bağlamışam. O müqaviləyə uyğun olaraq gələn ayın əvvəllərində Çinə və Honkonqa səfərim gözlənilir. İnanıram ki, bu səfərlər uğurlu olacaq və "Xəzər Adaları" layihəsi davam edəcək. Mən bu əfsanəvi şəhərin tikintisini başa çatdıracam".

"Xəzər Adaları"ndakı son vəziyyəti öyrənmək üçün şəhərin tikildiyi ərazidə olduq. Tikinti, demək olar, dayandırılıb. Xəzərin içərisinə doğru layihənin maketinə uyğun olaraq 3 kilometr ərazi artıq qurudulub və üzərində tikinti işləri aparılıb. Bunları kənardan da görmək mümkündür. Eyni zamanda kənardan ərazidə fəhlələrin işləmədiyini, sakitliyin hökm sürdüyünü də müşahidə etdik.

Adalara yaxın ərazidə yaşayan Məhərrəm adlı şəxs bildirdi ki, əvvəllər burada qızğın iş getsə də, 4 aydan çoxdur ki, sakitlikdir:

"Əvvəllər bura o qədər qum, daş və digər tikinti materialları gətirirdilər ki, səsdən evdə otura bilmirdik. Yəni güclü iş gedirdi. Özüm də kənardan baxırdım, xoşuma gəlirdi. Getdikcə dənizin içərisinə doğru suyu quruda-quruda irəliləyirdilər. Bax oraya çıxıb *(ərazidəyə yaxınlıqda yerləşən təpələri göstərir)* baxırdım adalara. Hələ uşağın bir "binokul"u vardı. Onunla baxırdım. Özüm Biləsuvardanam. Orada yaşayan qohumlarımdan da bu tikintilərdə işləyənlər var idi. Ancaq 3-4 ay olar ki, onlar işləmirlər. İşlədikləri ayların haqqını alıblar".

Sakindən ayrıldıqdan sonra "Xəzər Adaları"nın giriş postu kimi tanınan və mühafizəçilərin oturduğu yerə yollandıq.

Bizə bildirdilər ki, Hacı İbrahim Nehrəmli ofisdə deyil. Onun əsasən baş ofisdə oturduğu bildirildi. Orada olarkən öyrəndik ki, layihənin inşası üçün istifadə olunan tikinti materiallarının əsas hissəsi giriş postunun yaxınlığında saxlanılır. Bununla yanaşı, tikinti aparmaq üçün istifadə olunan texnika da məhz buradadır. Mühafizəçilər bildirdilər ki, adalarda iş dayandıqdan sonra tikintidə istifadə olunan texnikaların bir hissəsi burada saxlanılır. Adalarda olduğumuz zaman bir nəfər də olsun fəhləyə rast gəlmədik. "Xəzər Adalar"ında tikinti işləri tamamilə dayandırılıb. Texnikalar isə tozun altındadır. Uzun zamandır istifadə olunmadığı açıq şəkildə sezilir.

Giriş postunda söhbət etdiyimiz mühafizəçilər Hacı İbrahim Nehrəmlidən razılıq etdilər. Onlar bildirdilər ki, maaşları hələ ki vaxtı-vaxtında verilir. Bununla bağlı problemləri yoxdur. Həmçinin söylədilər ki, sabaha bir ümidləri var. O da Hacı İbrahim Nehrəmlinin yaxın zaman üçün planlaşdırdığı Honkonqa olan səfəridir.

Hacı İbrahimin qaçmaq istəyi ilə bağlı yayılan xəbərlər də məhz bu səfərin ətrafında yaranıb. Ancaq orada olarkən bizə məlumatların əksini söyləyib, yayılan xəbərləri də əsassız adlandırdılar.

**Özünü "Xəzər Adaları"nın mühafizə rəisi kimi təqdim edən və yazıda ona elə bu cür xitab etməyimizi xahiş edən şəxs bildirdi ki, Hacı İbrahimin xaricə getməsində bir səbəb var. O da müqavilədir:**

"Hacı İbrahimin Honkonqa gözlənilən səfəri Çin Milli Birləşmiş Resursların İnkişafı Beynəlxalq Şirkətinin sədri Li Jian Junla imzaladığı müqavilənin davamıdır. Onun qaçması ilə bağlı yayılan xəbərlər, sadəcə olaraq, əsası olmayan informasiyalardır. Hazırda "Xəzər Adaları"nın tikilən hissəsinə bir milyard dollardan çox vəsait təklif edirlər. Hacı İbrahimin də Beynəlxalq Banka olan borcu cəmi 450 milyon manat civarındadır. Yəni o, istəsə layihədən imtina da edə bilər. Daha nə üçün xaricə qaçmalıdır ki? O, xaricə gedərək, özünün də qeyd etdiyi kimi, müqavilənin davamını imzalayıb, ayrılan vəsaiti gətirərək "Xəzər Adaları"nda tikintiyə davam edəcək".

**Əldə etdiyimiz məlumata görə, səfərin 6 oktyabr tarixində reallaşması planlaşdırılır.**

❑ **Əli RAİS**

# "Pirverdiyev hakimiyyət üçün bitib"

## Ekspertlər seçkilərdən sonra onun vəzifəsini itirəcəyini iddia edir



Etibar Pirverdiyev

**Məlum olduğu kimi, bu ilin əvvəllərindən başlayaraq, Azərbaycanda ağır çəkili bəzi məmurların səlahiyyətlərinin məhdudlaşdırılması prosesinə start verilib. Təsadüfi deyil ki, ilk hədəfə tuş gələnlər nəqliyyat naziri Ziya Məmmədov və "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev seçildi.**

E.Pirverdiyev nəqliyyat nazirinə nisbətən daha ağır zərbə aldı. Xüsusilə ölkə prezidentinin 10 fevral 2015-ci il tarixli sərəncamı ilə "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin yaradılması, "Azərenerji"nin tabeliyində olan səlahiyyətlərin böyük bir hissəsinin bu quruma həvalə olunması E.Pirverdiyevin açıq şəkildə "vurulması" demək idi. Ölkə başçısının bu sərəncamından sonra bir müddət mətbuatda "Azərenerji"nin ləğvi və E.Pirverdiyevin işsiz qalması barədə xəbərlər dolaşdı. Lakin sonradan yayılan xəbərlər öz təsdiqini tapmadı. Əslində bir müddət əvvəl "Azərenerji" prezidentinin "vurulacağı" barədə xəbərlər gəzirdi. Səbəb kimi, onun şəxsi biznes nəzarətində olan bir sıra özəl şirkətlərin hesabına dövlət büdcəsindən pul köçürməsi və nağdlaşdırılması prosesinə rəhbərlik etməsi göstərildi. Zaman keçdikcə, E.Pirverdiyev barəsində səslənən bu və ya digər ittihamlar öz təsdiqini tapmaqdadır.

Heç şübhəsiz ki, hazırda "Azərenerji" ASC-nin prezidenti ən çətin günlərini yaşayır. Faktiki olaraq, formal bir qurumun formal rəhbərliyini icra edir. Bütün bunlar onu göstərir ki, "Azərenerji" ASC yaxın günlərdə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin taleyini yaşayacaq, yəni ləğv olunacaq.

Bəzi ekspertlər hesab edirlər ki, qarşıdan gələn parlament seçkilərindən sonra Azərbaycan hakimiyyəti ciddi dəyişikliklərə gedəcək və bu çərçivədə bir sıra yüksək ranqlı məmurlar vəzifələrindən azad olunacaqlar. Bütün bunlar baş verərsə, ilk göz önünə gələn isimlər E.Pirverdiyev və Z.Məmmədov olacaq.

**İqtisadçı ekspert Natiq Cəfərli "Azərenerji" ASC ilə bağlı məsələlərin hələ tam həll olunmadığı qənaətindədir:** "Əgər hər hansı bir qərar verilibsə, buna uyğun addımlar atılırsa, demək, "Azərenerji" ilə bağlı məlum olan və bilmədiyimiz məsələlər həll olunmayıb. Çünki bu qurum ölkədə ən çox borcu olan dövlət şirkətlərindən biridir. Vergi və digər qurumlar qarşısında ciddi borc öhdəlikləri var. "Azərenerji"nin rəhbərliyi altında bilmədiyimiz həyata keçirilən layihələr ola bilər. Bu quruma aid olmayan tikililərdə, açılışlarda Pirverdiyevin birbaşa iştirakını gördük. Bu gizlədilmirdi. Televiziyalar və mətbuat açıq şəkildə verirdi. Ola bilər ki, həmin layihələrlə bağlı son qərar verilməyib. Mühasibatlıq sona çatdırılmayıb. Pirverdiyev sona qədər hesabat verə bilsə, çox güman ki, qurum yenə də bağlanacaq. Hər hansı bir şəxsin işində problemlər varsa, ona qarşı aparılan kampaniya quruma qarşı da aparılır. Son zamanlar maraqlı bir tendensiya yaranıb. Bir şəxs işinin öhdəsindən gələ bilmirsə, vəzifəsindən dərhal azad olunmalı, cəzalandırılmalıdır. Hətta işində ciddi nöqsanlar, dövlət büdcəsi ilə bağlı mənimsəmələr olubsa, barəsində cinayət işi açılmalıdır. Görünən odur ki, bir sıra vəzifəli şəxslərlə bağlı, həmçinin Pirverdiyevlə əlaqədar səlahiyyətlərinin əlindən alınması və oyundan kənarlaşdırılması prosesi gedir. Bu, çox maraqlı və yeni tendensiyasıdır. Əvvəllər belə bir şeyin şahidi olmurduq. 2016-cı ilin dövlət büdcəsi layihəsində maraqlı bir cümlə var. Gələn il bir çox dövlət inhisarında olan sahələrdə dotasiyaların mərhələ-mərhələ ləğv olunması prosesi nəzərdə tutulub. Dövlət büdcəsindən dotasiya alan təbii inhisarçılar bu hüquqdan məhrum olunacaqlar".

**N.Cəfərli Pirverdiyevin səlahiyyətlərinin azaldılmasına belə aydınlıq gətirdi:** "Ən çox dotasiya alan qurumlardan biri "Azərenerji" idi. Çox güman ki, bu qurumun səlahiyyətlərinin azaldılması həm də bununla bağlıdır. Təkcə "Azərenerji" ilə bağlı yox, digər qurumlarla bağlı da bu addım atılacaq. "Azərenerji"də ciddi problemlər var. Həmin sahə effektiv idarə olunmur. Azərbaycanda maye dəyəri digər ölkələrə nisbətən çox yüksəkdir. İtkilər həddindən artıq çoxdur. Çox yaxın günlərdə "Azərenerji"nin timsalında bir çox qurumlar barədə kəskin qərarların, ciddi dəyişikliklərin şahidi ola bilərik".

Məsələyə siyasi yöndə də yanaşdıq.

**Politoloq Natiq Miri hesab edir ki, E.Pirverdiyev hakimiyyət üçün bitmiş insandır:** "Ziya Məmmədov və Pirverdiyev hakimiyyət üçün əslində bitiblər. Amma nəzərə almaq lazımdır ki, bu şəxslərin əllərində ciddi siyasi kapital olmasa da, maliyyə kapitalları var. Hakimiyyət anlayır ki, gələcəkdə bu kapitallar ciddi maneələr yarada bilər. Ona görə də bu insanları heç bir əhəmiyyətə malik olmayan, səlahiyyətləri əllərindən alınan bir qurumun başında saxlayırlar. Bu təkcə "Azərenerji" ilə bağlı deyil. Son zamanlar Nəqliyyat Nazirliyi ilə də bağlı proseslər gedir. Hakimiyyət bununla ictimaiyyətə mesajlar verir ki, asanlıqla kadrlarını və onların kapitallarını xərcləmək fikrində deyil. İqtidar özününkülərə sahib çıxmağı bacarır".

N.Miri onu da bildirdi ki, seçkilərdən sonra bir sıra məmurların vəzifələrindən uzaqlaşdırılması prosesi gözlənilir.

❑ **Cavanşir ABBASLI**



# Məzahir Pənahov namizədləri hədələdi

## MSK sədri bəzi deputatlığa namizədlərin sosial şəbəkələrdə təşviqatla bağlı pozuntulara yol verdiklərini bildirib

**Sentyabrın 29-da Mərkəzi Seçki Komissiyasının iclası keçirilib. MSK katibliyinin media və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda MSK sədri Məzahir Pənahov məlumat verib ki, deputatlığa namizədliyi irəli sürülənlərin sayı 1753 nəfərə çatıb. İndiyə qədər 427 nəfərin namizədliyi qeydə alınıb. Namizədliyi qeydə alınanlardan 165 nəfərin namizədliyi 14 siyasi partiya tərəfindən, 2 nəfərin namizədliyi "Azadlıq-2015" siyasi partiyalar bloku tərəfindən irəli sürülüb, 258 nəfərin namizədliyi fərdi qaydada, qalanların namizədliyi təşəbbüs qrupları tərəfindən irəli sürülüb.**

Məzahir Pənahov bəzi deputatlığa namizədlərin sosial şəbəkələrdə təşviqatla bağlı pozuntulara yol verdiklərini də bildirib və bu cür pozuntulara yol verənlərə xəbərdarlıq edib. O qeyd edib ki, sosial şəbəkələr yeni bir reallıqdır. Ancaq bilmək olmur ki, həmin təşviqat materialını namizəd özü qoyub, yoxsa başqa birisi öz təşəbbüsü ilə sosial şəbəkədə təşviqat materialı yerləşdirib. Yaxşı olardı ki, namizəd özü sosial şəbəkədə çıxış edib, bununla bağlı mövqeyini ortaya qoysun, təkzib versin: "Namizədlər nəzərə almalıdır ki, təşviqat kampaniyası nəzərdə tutulmuş müddətdə başlayacaq. Xüsusən tanınmış insanlar bu məsələdə ehtiyatlı olmalıdırlar. Biz artıq bu məsələləri ictimaiyyətin müzakirəsinə çıxarmalıyıq. Çünki qəzetdə, televiziyada təşviqata yol verildə, biz bununla bağlı tədbir görürük. Ancaq sosial şəbəkələrlə bağlı qanunvericilikdə bu məsələ tənzimlənmir. On görə də məsələni ictimai müzakirəyə çıxarmalıyıq və namizədlər də bu məsələdə ehtiyatlı olmalıdırlar. Oktyabrın 9-dan tez təbliğat-təşviqat aparmaq qanunsuzluqdur.

Artıq sosial şəbəkələrlə bağlı MSK-ya şikayət məzmunlu müraciətlər də daxil olub".

MSK-nın iclasında quruma daxil olan müraciətlərə də baxılıb. MSK katibi Arifə Muxtarova bildirib ki, 94 saylı Bərdə kənd seçki dairəsindən Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Dadaş Əhməd müvafiq dairə seçki komissiyasının namizədliyini qeydə almaması ilə əlaqədar MSK-ya şikayət edib. MSK-nın işçi qrupu tərəfindən aparılan araşdırma zamanı təqdim edilən 550 imzadan 192-si etibarsız sayılıb. Məsələ səsverməyə çıxarılıb və MSK şikayəti əsassız sayıb.

MSK üzvü Ramiz İbrahimov 82 saylı Ağcabədi seçki dairəsindən Müsavat Partiyası tərəfindən namizədliyi irəli sürən Rəşid Nəcəflinin namizədliyinin 82 saylı Ağcabədi Dairə Seçki Komissiyası tərəfindən qeydə alınmamasından şikayət etdiyini nəzərə çatdırıb. Aparılan araşdırma zamanı 550 imza təqdim edildiyini, sonradan 224 nəfərin yazılı ərizə ilə dairə seçki komissiyasına ərizə verərək imzalarının Müsavat Partiyasının namizədi üçün alındığından xəbərsiz olduqlarını bildirdikləri üzə çıxıb. MSK-nın iclasında iştirak edən R. Nəcəfli deyib ki, ona imza verən 224 nəfər təzyiq və şantajla ərizə yazaraq imzalarını geri götürüb. MSK sədri Məzahir Pənahov imza verən şəxslərin imzalarını geri götürməsindən sonra MSK-nın atacağı bir addımın olmadığını söyləyib. MSK 82 saylı Ağcabədi Dairə Seçki Komissiyasının qərarını qüvvədə saxlayıb, R.Nəcəflinin şikayətini təmin etməyib.

MSK üzvü Qabil Orucov 61 saylı Neftçala seçki dairəsindən namizədliyi irəli sürülən Kamran Əsədovun müvafiq dairə seçki komissiyası tərəfindən namizədliyinin qeydə alınmamasından şikayət etdiyini bildirib. MSK şikayəti əsassız sayıb.

MSK üzvü Bəxşeyiş Əsgərov 74 saylı Lənkəran kənd seçki dairəsindən namizədliyi irəli sürülən Tural Süleymanovun namizədliyinin 74 saylı Lənkəran Dairə Seçki Komissiyası tərəfindən qeydə alınmadığını nəzərə çatdırıb. MSK-nın işçi qrupunun apardığı araşdırma zamanı T. Süleymanov üçün imza toplayan şəxslərin namizəd üçün yox, kəndə yol çəkdirmək adı altında imza topladıqları üzə çıxıb. MSK T. Süleymanovun şikayətini əsassız sayıb.

❑ E.SEYİDAĞA

# "Kim deyir ki, yazdıqlarımız ünvana çatmır?"

## Bəxtiyar Sadıqov Barak Obama ilə bağlı yazdıqları tənqidi məqalələrdən danışdı

**Son zamanlar "Azərbaycan" qəzetində Avropa və Amerika əleyhinə yazılar dərc edilir. Xüsusən ABŞ prezidenti Barak Obama ilə bağlı tənqidi məqalələr diqqət çəkir. Ağdamdan deputatlığa namizəd, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovla söhbətimizdə həm yaxınlaşmaqda olan seçkilər, həm də "Azərbaycan" qəzetinin məqalələri ilə bağlı danışdıq.**
**Müsahibimiz öncə seçkilərlə bağlı danışdı.**

- Mən deyim ki, artıq dördüncü dəfədir ki, YAP mənə böyük etimad göstərir və vətənimdən - 119 saylı Ağdam seçki dairəsindən namizədliyimi irəli sürür. Bu, eyni zamanda mənim üçün böyük məsuliyyətdir. Milli Məclisin ən stajlı jurnalistlərindən, jurnalist redaktorlarından biri kimi orda jurnalistikanın da təmsilçisiyəm. Çalışacam ki, bu dəfə də qalib gəlim və hər dəfə sübut edim ki, jurnalistlər parlamentdə uğurla təmsil olunurlar, seçicilərinin etimadını doğruldurlar və növbəti dəfə onlara etibar və etimad göstərilir. Mənim dairəmdə 14 nəfər namizədliyini irəli sürmüşdü, mən də daxil. 4 nəfər artıq namizədliyini geriyə götürüb. Səbəbini bilmirəm. Mənim 9 rəqibim var. Onların içində bir neçə nəfər var ki, stajlı deputatlığa namizədlərdir.

***- Stajlı namizədlər...? Adətən Azərbaycanda bəziləri bu sahəyə biznes kimi yanaşırlar. Sizin stajlı rəqiblərinizin məqsədi nədir?***

- O sözü mənim dilimdən qoparmaq istəyirsənsə, deməyəcəm. (gülür) Amma başqa bir şey deyim. Keçən seçkilərdən birində ağdamlı bir jurnalist gəlib dedi ki, inciməyin, mən də dairədən namizədliyimi verməşəm. Dedim, niyə inciməliyəm? Mən qalib gəlsəm, sən mənim əlimi sıxacaqsan. Sən qalib gəlsən mən edəcəm bunu. Dedi, istəyirsinizsə, namizədliyimi geri götürüm. Dedim, niyə? Qeydiyyatdasan axı. Yox, əgər bir rəqibin sözü ilə namizədliyini geri götürəcəksənsə, onda bu nə namizədlik oldu? Dedi ki, vallah, Bəxtiyar müəllim, istəyirəm tanınım. Dedim, ay bala, əgər jurnalist kimi tanınmamısansa, namizəd kimi necə tanınacaqsan? Kim hansı niyyətlə, fikirlə gəlirsə, öz işidir. Amma bu, çox ciddi və məsuliyyətli məsələdir. Bizim seçicilərimiz öz camaatımızdır. Onların içində dostlarımız, qohumlarımız var. Kim hansı niyyətlə gəlirsə, camaatımız onu bilir, ona uyğun da davranır. Ən təmiz niyyət xalqa xidmət etmək, onun problemlərinə can yandırmaqdır ki, seçici də bunu dərhal bilir.

***- Maraqlıdır ki, bu dəfə seçkiyə qatılan redaktorların, jurnalistlərin sayı ötən dəfəkilərdən az oldu. Bəziləri bizə müsahibələrində dedilər ki, YAP-ın siyahısını gözləyirlər. Siyahının açıqlanmasından sonra tərəddüd edənlər, fikrindən daşınanlar oldu... Sizcə, builki mənzərə niyə media sektorunun əleyhinə oldu?***

- Mən o redaktorların yerinə cavab verə bilmərəm. Amma indi niyə jurnalistlər azdır sualının cavabını təxmin edə bilərəm. İnsanlar artıq o yükün məsuliyyətini dərk edirlər. Müstəqil Azərbaycanda 5-ci parlament seçkiləridir. Bəzən bir dairədən 20 namizəd olurdu, debatlar keçirilirdi, seçicilərlə görüşlər və sair. Və ondan sonra içi mən qarışıq bütün namizədlər düşünürdülər ki, özləri seçiləcəklər. Bunu nə qədər rahat bilirdilər. Düşürdülər qapı-qapı gün batandan sonra. Bir kəndə gedirdilər, qapını açanların hamısı da "qapıya gəlmisiz, əziyyət çəkmisiz, səsimiz sizindir" deyirdi. Qapıya gələnə nə deyərlər? Bu adamlar da 4-5 kənd gəzəndən sonra düşünürdülər ki, yüz faiz seçiliblər. Amma o bülleteni götürüb pərdənin arxasına keçəndə insanlar kimə səs verdiklərinin fərqində olurlar.

***- Rektorların deputat olmasına qadağa qoyuldu. Dövlət vəzifəsi tutan şəxslərin deputat olması ilə bağlı narazılıq hər zaman gündəmdədir. Siz deputat olsaz, baş redaktorluqdan gedəcəksizmi?***

- Yox, o düzgün yanaşma deyil. Bu, dövlət qulluğu sayılmır. "Azərbaycan" qəzeti büdcə təşkilatı deyil, təsərrüfat hesablıyıq. Dövlətin rəsmi qəzeti başqa şeydir. Dövlət öz informasiyalarını, hüquqi sənədlərini bizdə dərc etdirir. Mənim redaktorluğumun deputatlıqla üst-üstə düşməsi çox vacib, zəruridir. "Azərbaycan" qəzeti Milli Məclisin orqanıdır. Milli Məclisin özü Milli Məclisin orqanına rəhbərlik edirsə, artıq bu, qəzetin uğurudur. Deməli, mən parlament həyatının "Azərbaycan" qəzetində obyektiv və dəqiq ifadə olunmasının təminatçısıyam. Bu mənada Milli Məclisin mətbuat orqanı rəhbərinin Milli Məclisdə olması çox vacibdir.

***- "Azərbaycan" qəzeti son zamanlar yenə Amerika, Qərb, eləcə də Barak Obama ilə bağlı tənqidi yazıların sayını artırıb. Bu isə zaman-zaman ironik yanaşmalarla müşayiət olunur. Məsələn, sosial şəbəkədə, satirik yazarlar arasında "Obama hər gün "Azərbaycan" qəzetini oxuyub ondan nəticə çıxarır" kimi satirik yanaşmalar da var. Əgər məqsədimiz yazdıqlarımızın ünvana çatmasıdırsa və bu halda "Azərbaycan" qəzeti yazdıqlarının Obama tərəfindən oxunmadığını bilirsə... məntiq nədir?***

- Kim deyir ki, ünvana çatmır? Necə olur ki, "Vaşinqton Post"da, "Nyu-York Tayms"da bir məqalə çıxır, biz ondan xəbər tuturuq, amma "Azərbaycan" qəzetinin yazdıqlarından onlar xəbər tutmur? Bir etibarlı kanal var, onu siz də bilirsiz. Hər bir ölkənin xarici ölkədə olan səfirliyi həmin ölkənin mətbuatını izləyir, öz ölkəsi ilə bağlı olan məqalələri oxuyur, bu barədə müvafiq qurumlara çatdırır. Yəni biz yazdıq, ünvana çatmadı söhbəti yoxdur.

***- Yəni yazdıqlarınızın birbaşa Barak Obamaya çatması ilə bağlı əminliyiniz varmı?***

- Ona ancaq özü cavab verər ki, yazdıqlarımız ona təqdim olunur, ya yox. Hər halda, Ağ Evdə, ümumən onların maraqlı olduqları ölkələrin mətbuatı ilə maraqlanan, onun rezümesini hazırlayan insanlar var. Mətbuatda o dövlətlə bağlı gedən bütün məqalələr müzakirə olunur, diqqətə alınır. Ona görə də rəsmi dövlət qəzetində gedən materialdan Amerika rəsmilərinin xəbəri yoxdur söhbəti doğru deyil. Sıravi amerikalının bundan xəbəri olmaya bilər. Amma Amerika siyasətçisi, xüsusən də bizim regionla məşğul olan insanlar Azərbaycanın rəsmi dövlət qəzetində gedən məqalələrlə maraqlanır. Rəsmi qayda budur. Demirlər ki, fikir plüralizmi, demokratiyadır? O problemlər ki, sizin özünüzdə bizdən də min dəfə çoxdur, onu biz niyə deməyək? Bizə bir şey deyib, özünüz başqa şeyi niyə edirsiz? Nədi, nə olubdu? Bu nə ikili standartdır? Leyla Yunusdan, Xədicə İsmayılovadan hər gün danışanlar niyə bir dəfə də Şahbazdan, Dilqəmdən demirlər?

***- Azərbaycan Dövlət Televiziyasını çıxsaq, belə mənzərə yaranır ki, çap mediasında Amerika ilə təkbaşına siz döyüşürsüz...***

- Önə çıxmaq deməzdim. Mən qəzetin baş redaktoruyam, onun siyasətini müəyyənləşdirirəm. Dövlət başçısının söylədiyi çıxışlar, mövqe, yanaşmalar mənim üçün ən gözəl kompasdır. O, mövqeyini ortaya qoyanda biz jurnalistlər üçün mövzu qoyur. Qalan qəzetlər bizi meydanda tək qoyurlarsa, ikili standartın nümunəsidir. Mətbuat o qınağı niyə qoymur ortaya? Bizim demokratiya yoluna düşməyimiz 24 ildirsə, Amerikanınkı 200 ildir. Səndə olan nöqsan bizdəkindən də çoxdur. Bu, təkcə bir qəzetin yox, bütün Azərbaycan mediasının problemi olmalıdır, hamı öz sözünü deməlidir bu məsələdə.



Bəxtiyar Sadıqov

**"Necə olur ki, "Vaşinqton Post"da, "Nyu-York Tayms"da bir məqalə çıxır, biz ondan xəbər tuturuq, amma "Azərbaycan" qəzetinin yazdıqlarından onlar xəbər tutmur?**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015

# ARDNŞ-in vitse-prezidentinin "Yeni Müsavat"a qarşı qaldırdığı məhkəmə iddiasına baxılır

**Sentyabrın 29-da Bakının Nizami Rayon Məhkəməsində ARDNŞ-in vitse-prezidenti Mikayıl İsmayılovun "Yeni Müsavat" qəzetinə qarşı iddiasına baxılıb. Hakim Rəfayel Əliyevin sədrliyi ilə keçən prosesdə hakim çəkilişə icazə verməyib.**




Musavat.com-un xəbərinə görə, hazırlıq iclasında qəzeti hüquqşünas Vaqif Hüseyn təmsil edib. O bildirib ki, iddianı qəbul etmir: "Bu, söz azadlığının pozulmasıdır". Həmçinin iddiaya səbəb olan yazılarda adıçəkilən və məhkəməyə verilən vətəndaş Cavanşir Musayev də iddianı qəbul etmədiyini bildirib.

M.İsmayılovun iddiasına iki yazı səbəb olub: "Ağsuda vətəndaşları icarə obyektlərindən zorla çıxarırlar", "Dövlət başçısına şikayət edən Ağsu sakini hədələnir". Yazıda adıçəkilən şikayətçi Cavanşir Musayev də məhkəməyə verilib.

Qeyd edək ki, M.İsmayılov "Yeni Müsavat"ı, onun xəbərini verən "xalqxeber.az"ı məhkəməyə verib. O, şərəf, ləyaqət və işgüzar nüfuzunu ləkələyən məlumatların təkzib edilməsini və ondan üzr istənilməsini tələb edir.





**V.Hüseyn bildirib ki, iddia ərizəsi düzgün tərtib olunmayıb:** "Ərizədə Mikayıl İsmayılov poçt ünvanı kimi öz ünvanını göstərməyib. Biz nə bilək ki, bu, ARDNŞ-in vitse-prezidenti olan Mikayıl İsmayılovdur?" Hakim isə onunla razılaşmayıb və iddianı geri qaytarmayıb. Cavabdehlərdən "xalqxeber" saytı məhkəməyə gəlmədiyi üçün proses sentyabrın 30-dək təxirə salınıb.

V.Hüseynin musavat.com-a verdiyi son xəbərə görə, hakim "Yeni Müsavat"ın hüquqi qeydiyyatının Xətai rayonunda olduğunu əsas gətirərək işi baxılması üçün Xətai Rayon Məhkəməsinə göndərib.

# Kipr universiteti kimsəsiz tələbəmizi nə üçün qovur?

## Doğu Akdeniz Universiteti müqaviləni pozaraq, xanım tələbədən təhsil haqqı tələb edir

**Kiprin Doğu Akdeniz Universiteti azərbaycanlı tələbə Ülviyyə Məcnunovanı ali təhsil müəssisəsindən xaric etmək istəyir. Ali məktəb SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyası ilə bağlanmış qarşılıqlı müqaviləni pozaraq, əslən Oğuzdan olan kimsəsiz tələbədən təhsil haqqı tələb edir.**

Ülviyyə Məcnunovaya sentyabrın 30-na qədər təhsil haqqını ödəmək üçün vaxt qoyulub. Bu vaxta qədər nəzərdə tutulmuş məbləğ ödənilməsə, atasız-anasız böyüyən bir gənc təhsil müəssisəsini bitirməyə 6 ay qalmış xaric olunacaq.

Bu barədə müsavat.com-a SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyasında menecer işlədiyi dövrdə U.Məcnunovanın Kiprdə oxumasına yardımçı olan 125-lər Siyasi Klubunun sədri **İlhamiyyə Rza** məlumat verib: "4 il bundan öncə SOS Uşaq Kəndlərində işlədiyim dövrdə, assosiasiyanın yetirməsi olan Ülviyyə Məcnunova orta məktəbi bitirmişdi. O, Gənclər Evində himayədə idi. O zaman Kiprin Doğu Akdeniz Universitetindən nümayəndələr gəlmişdi. Azərbaycanda universitetlərini tanıtmaq üçün. Onlarla əlaqə qurduq. Öz yetirməmizin orada təhsil almasını istədik. Onlar təklif etdilər ki, biz ona pulsuz təhsil verə bilərik. Biz də razılaşdıq. Əvəzində onlar haqqında müsbət rəy yaratmaq, Azərbaycanda tanıtmaq öhdəliyini üzərimizə götürdük. Həmin vaxt konfrans keçirdik. Bütün mətbuat nümayəndələrini dəvət etdik. Mediada yüksək səviyyədə təbliğ olundular. Ülviyyənin televiziya verilişlərində iştirakını təmin etdik. Onun müsahibələri oldu. SOS Uşaq Kəndləri Azərbaycan Assosiasiyasının rəhbərləri olaraq, daim onlara mətbuatda öz təşəkkürümüzü bildirirdik. Yetirməmizə pulsuz təhsil imkanı yaratdıqlarına görə".



**İlhamiyyə Rza:**
"Ülviyyənin təhsilini bitirməsinə 6 ay qalıb..."

**İ.Rza Kiprin ali təhsil müəssisəsinin üzərinə götürdüyü öhdəliyi pozmasından da danışdı:** "Təəssüf ki, o zamandan bu yana həmin universitetdə rəhbərlik dəyişiklikləri oldu. SOS Uşaq Gənclərinin özündə də üç dəfə rəhbərlik dəyişikliyi oldu. Hər rəhbərlik dəyişəndə Ülviyyəyə problemlər yaradılırdı. Biz də oradakı nümayəndələr vasitəsilə universitet rəhbərliyinə olan razılaşmanı xatırladırdıq. İndi təzədən rəhbərlik dəyişib. Yenidən bu məsələ qalxıb. Ülviyyənin təhsilini bitirməsinə 6 ay qalıb. İndi qızı qeydiyyata almırlar. İmtahanların artıq sonuncu günüdür. Universitetin illik təhsil haqqı 6 min dollar idi. Hazırda nə qədər məbləğ istədikləri məlum deyil. Sadəcə, təhsil haqqının ödənilməsini tələb edirlər".

Doğu Akdeniz Universitetinin rektoru ilə əlaqə saxlamağa cəhd etdik. Birinci cəhddə alınsa da, cavab verən olmadı. Sonrakı dəfə isə artıq telefon söndürülmüşdü.

**Mövzunu diqqətdə saxlayacağıq.**

❑ **Cavanşir ABBASLI**

# Manat sabit qalacaq?

## Vahid Əhmədov: "Bunun üçün dövlətin 40 milyarda yaxın ehtiyatı var"

**2016-cı ilin dövlət büdcəsinin zərfi artıq Milli Məclisə daxil olub və gələn həftədən başlayaraq komitələrdə müzakirə olunacaq. Büdcə zərfi ilk növbədə parlamentin İqtisadi siyasət komitəsində müzakirəyə çıxarılacaq. Modern.az komitə üzvlərindən büdcə zərfini necə dəyərləndiklərini öyrənib.**

Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvi Vahid Əhmədov bildirib ki, hazırda deputatlar büdcə zərfinin üzərində işləyir:

"Əlbəttə, dünyadakı qlobal maliyyə böhranı, neftin qiymətinin kəskin aşağı düşməsi fonunda hökumətin təqdim etdiyi büdcə layihəsini normal hesab etmək olar. Əsas bizi narahat edən məsələlər sosial sahə ilə bağlı idi və ora, ümumiyyətlə, diqqət artırılıb. Hətta keçən ildən də artıq, təxminən 35 faizə yaxın sosial sahəyə vəsait ayrılıb. Digər sahələrə, o cümlədən elmə, təhsilə, səhiyyəyə normal səviyyədə vəsait ayrılıb, elə bir ciddi problem yoxdur. Yalnız investisiya layihələri ilə bağlı problem var. Çünki dövlət büdcəsində keçən ilə nisbətən təxminən 25 faiz azalma var. Ona görə investisiya layihələri müəyyən müddətə saxlanılıb. Yəni əsas insanları narahat edən məsələ sosial layihələrin həyata keçirilməsidir ki, bununla bağlı heç bir ixtisar yoxdur, əksinə, artırmalar var".

**Vahid Əhmədov dövlət büdcəsində neftin qiymətinin 50 dollardan götürülməsini normal qiymətləndirib:** "Orta hesabla proqnozumuz belədir ki, 2016-cı ildə neft təxminən 55 dollar səviyyəsində olacaq. Ona görə də dövlət büdcəsinə ciddi iradımız yoxdur".

**Deputat qeyd edib ki, burada əsas yük bu il də olduğu kimi Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu və Dövlət Gömrük Komitəsinin üzərinə düşür:** "2015-ci ilin 6 aylıq yekunlarına baxdım, Vergilər Nazirliyi bu sahədə çox mükəmməl iş görür. Çünki dövlət büdcəsi vergi və digər gəlirlərdən asılıdır. Fikrimcə, Dövlət Gömrük Komitəsi və Dövlət Sosial Müdafiə Fondu 2016-cı ildə öz işlərini yüksək səviyyədə quracaqlar, nəticədə dövlət büdcəsində problem yaranmayacaq. Manatın məzənnəsi ilə əlaqədar da hökumətin rəqəmləri 1,05 səviyyəsində göstərilib. Bu o deməkdir ki, 2016-cı ildə də manat özünü qoruyub saxlayacaq. Bunun üçün dövlətin 40 milyarda yaxın ehtiyatı var. Yəni 2016-cı ilin dövlət büdcəsi normaldır".

# Sevil Əliyevadan sərt qınaq

**Prezident İlham Əliyevin bacısı Sevil Əliyeva öz "İnstagram" səhifəsini bağlayıb. ANS PRESS-in məlumatına görə, Sevil Əliyeva bu barədə öz şəxsi "İnstagram" səhifəsində məlumat yayıb.**


Sevil Əliyeva

Məlumatda deyilir:

"Əziz dostlar! Bu müddət ərzində sizlərlə ünsiyyətdə olmaq mənim üçün çox xoşdur. Mən hər birinizin fikrinə hörmətlə yanaşıram. Lakin təəssüflər olsun ki, mən hərdən insanlarla qurduğum səmimi, mədəni ünsiyyətə bəziləri tərəfindən qarşılıqlı münasibət görmürəm. Beləlləri bu münasibətlərdən sui istifadə edib etik qaydaları pozurlar! Ona görə də mən direct-i bağlayıram. Mən bu səhifə haqqında əvvəlcədən demişdim ki, burada mənim keçmişim və bu günüm əks olunacaq. Və əlbəttə, yaradıcılığım yer alacaq. Ümid edirəm ki, məni düzgün başa düşəcəksiniz.

Hörmətlə, Sizin Sevil Əliyeva!"

# Dərmanlar ucuzlaşdı, bəs keyfiyyət?

**Sentyabrın 15-dən Azərbaycanda 25 təsiredici maddə üzrə 1057 dərmanın vahid qiymətlə satışına başlanılıb. O vaxtdan apteklərdə monitorinqlər aparılır, dərmanların qeyd edilən qiymətə satılıb-satılmadığı araşdırılır.**

Dərmanların təsdiq edilən qiymətə satılması əhali arasında bəzi şübhələrin yaranmasına səbəb olur. İnsanların çoxu vahid qiymətə satılan dərmanları almağa tərəddüd edirlər. Çünki əvvəlkindən xeyli aşağı satılan dərmanların keyfiyyətsizliyindən və onların saxta olmasından şübhələnirlər.

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Dərmanların Keyfiyyətinə Nəzarət İnspeksiyasının rəisi Pərviz Əzizbəyov modern.az-a bildirib ki, dərmanların qiymətlərinin ucuzlaşmasının keyfiyyətinə heç bir təsiri yoxdur:

"Qiymətin təsdiqlənməsi ancaq dövlət qeydiyyatına alınan, dövlət reyestrinə salınan, onun istifadəsinə və idxalına icazə verilən dərmanlara aiddir.

Buna görə də dərman vasitəsinin qiyməti təsdiqlənirsə, burada dövlət qeydiyyatına alınanlardan söhbət gedir. Dərman vasitəsi dövlət qeydiyyatına alınıbsa, bu zaman onun parametrlərinin ekspertizası aparılır, onun keyfiyyəti təsdiqləndikdən sonra həmin dərman vasitəsi dövlət qeydiyyatına alınır, qeydiyyat vəsiqəsi verilir və dövlət qeydiyyatına alınan dərman vasitələrinin reyestrinə salınır".

**Pərviz Əzizbəyov qeyd edib ki, dərmanların qiymətinin ucuzlaşmasının onun keyfiyyətinə təsir göstərməsi haqqında informasiyanın heç bir əsası yoxdur:**

"Əhali heç bir narahatlıq keçirmədən bu dərman vasitələrini alıb istifadə edə bilər. Keyfiyyətlə bağlı heç bir problem yoxdur. Əgər hər hansı dərmanla bağlı şübhə yaranırsa, apteklərin üzərindəki qaynar xətt telefonuna zəng edib müraciət etsinlər, onları maraqlandıran sualları versinlər, biz araşdırarıq.

Bu günə qədər belə halla rastlaşmamışıq və keçirdiyimiz monitorinqlərdə də həmin 1057 adda dərmanın qiymətlərə uyğun satışının aparıldığını müşahidə edirik".

# "Palmali"dən İŞİD ittihamına cavab gəldi

**Rusiyanın nüfuzlu "Novaya qazeta" nəşri "İslam dövləti" (İŞİD) terror təşkilatının İraq və Suriyada ələ keçirdiyi neft yataqları fonunda sensasion iddia ortaya atıb.**

Bunların arasında zəngin ehtiyatlara malik əl-Ömər, Rakka, Deyr əs-Zor yataqları da yer alır. Habelə İraqın Kərkük şəhərindən Türkiyənin Ceyhan limanına uzanan neft kəməri də İŞİD-in nəzarətindədir. Bundan başqa, Suriya və Liman sahillərindəki limanlara neft nəqlinə imkan verən İSLP kəməri də işlək vəziyyətdədir.

Qəzet yazıb ki, İŞİD-in Türkiyənin Ceyhan limanına nəql etdiyi neft Ceyhan limanından azərbaycanlı oliqarx Mübariz Mənsimovun "Palmali Shipping & Agency JSC" şirkətinə məxsus tankerlərlə daşınır. Nəşrin məlumatına görə, dünyanın aparıcı xüsusi xidmət orqanları bu haqda xəbərdardır.

Modern.az məsələ ilə bağlı qarşı tərəfdən münasibət öyrənməyə çalışıb. "Palmali" şirkətlər qrupunun vitse-prezidenti İbrahim Nəbioğlu iddialara belə cavab verib: "Mənim o qəzetin elə bir məlumatından xəbərim yoxdur. Lakin deyə bilərəm ki, bütün bunlar şayiədən başqa bir şey deyil".

Qeyd edək ki, Mübariz Mənsimov neft daşımalarında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın oğlu Bilal Ərdoğanla ortaqdır.

Bundan əvvəl də Türkiyə mediasında Ərdoğan ailəsinin İŞİD neftini alıb-satdığına dair iddialar səslənib, ancaq Türkiyə rəhbərliyi bu məlumatları qətiyyətlə təkzib edib.

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015

# Cəza ağırlaşır, “avtoş”lar yorulmurlar...

## Yolda pozuntu edənlərin sayı niyə durmadan artır?

**Bakıda avtomobili sərxoş halda idarə edən, işıqforun qırmızı işığında yolu keçən, yolayrıcını keçmə qaydalarını pozan sürücülərin sayı artıb.**

Bu barədə Daxili İşlər Nazirliyi (DİN) Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsinin İctimai qurumlarla əlaqə bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədov deyib. Onun sözlərinə görə, 2015-ci il yanvarın 1-dən sentyabrın 26-dək paytaxtda 598 yol-nəqliyyat hadisəsi baş verib.: “Nəticədə 167 nəfər ölüb, 663 nəfər xəsarət alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə hadisələrin sayı 70, ölüm sayı 68 fakt azalıb, xəsarət alanların sayında isə 4 fakt artım olub. Təkcə ötən həftə ərzində, yəni sentyabrın 19-dan 26-dək Bakıda 12 yol qəzası baş verib. Nəticədə 3 nəfər ölüb, 14 nəfər xəsarət alıb. Ondan əvvəlki həftə ilə müqayisədə 4 hadisə, 3 ölüm faktı azalsa da, 1 xəsarət faktı artıb”.

**V.Əsədov qeyd edib ki, bu il yanvarın 1-dən sentyabrın 26-dək Bakı şəhəri üzrə yollarda təhlükəsizliyin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər nəticəsində 691667 inzibati protokol tərtib edilib:** “Bunlardan 139722-si sürücülərə yolayrıcını keçmə qaydalarını pozduğuna, 13408-i avtomobili sərxoş halda idarə etdiyinə, 10026-sı işıqforun qırmızı işığında keçdiyinə, 8487-si sürət həddini aşdığına, 6846-sı ötmə və manevretmə qaydalarını pozduğuna, 3324-ü qəza şəraiti yaratdığına, 2892-si polisin qanuni əmrinə tabe olmadığına, 2667-si avtomobili müvafiq sənədləri, 466-sı dövlət nömrə nişanı olmadan, 2674-ü isə icazə verilməyən pərdə və plyonkalı idarə etdiyinə, 1649-su sərnişindaşıma qaydalarını pozduğuna, 578-i avtoxuliqanlığa görə tərtib edilib. Yol hərəkəti qaydalarını pozduğuna görə, 84515 halda piyadalar cərimə olunub. Digər qayda pozuntuları ilə bağlı 374140 protokol tərtib edilib. Bundan başqa MMX vasitəsilə 243464 elektron protokol tərtib edilib”.



Göründüyü kimi, kifayət qədər böyük rəqəmlər və pozuntulardan söhbət gedir. Heç kimə sirr deyil ki, şəhərdəki gizli kameralar, yol polislərinin çoxluğu sürücüləri belə pozuntulardan ümumən çəkindirir. Hətta bu cərimələrin fonunda belə “avtoş”ların sayı artan xətt üzrə gedirsə, deməli, bunun psixoloji qatlarına enmək lazımdır.

İlkin ehtimallar budur ki, Azərbaycanda gənclik, xüsusən də gənc sürücülər öz azadlıqlarını bu formada həyata keçirir, özlərini belə ifadə etməyə çalışırlar. Bu, gənclik enerjisinin bu formada təzahürüdür. Bundan başqa, Bakı yollarında daha çox bilərəkdən qanun pozuntusu edənlər varlı təbəqənin nümayəndələri sayılırlar. Bu isə daha çox təlim-tərbiyə, eləcə də pulun çoxluğunun problemidir. İnsanlar çox vaxt azadlıqla pərdələnərək, əslində fərqlənmək arzusu ilə belə addımlar atır. Daha dəqiq desək, özünü heç bir sahədə realizə edə bilməyənlər son çarə olaraq “nəqliyyat canavarı” olmaq eşqinə düşür. Və nəticədə isə... yuxarıda yazılan statistikaya baxıb, gerçək mənzərəni görmək olar.

Təbii ki, bu, təkcə bizim ölkəyə xas durum deyil. Dünya avtoşlar və onların əməllərindən bir əsrdir ki, xəbərdardır. Dünyada bu sahənin adı “street racing” - küçə ötüşmələri adlanır. Sözügedən məşğuliyyət 1930-cu ildə Amerikada yaranıb. Özü də maraqlı səbəbdən. ABŞ-da alkoqola qoyulan qadağaya etiraz olaraq küçələrdə avtoşların yarışı təşkil olunub. Amma zaman keçdikcə bu ötüşmələr qeyri-qanuni küçə idmanına çevrilib. Bir qayda olaraq, bu ötüşmələr ictimai yollarda keçirilir. Bəzi hallarda isə planlaşdırılmış aksiyalar kimi də təşkil olunur.

“Avtoş”lar müəyyən kateqoriyaya bölünürlər.

Birinci kateqoriyaya “streetracer”lər - küçələrdə şütüyənlər - aiddir. Onlar üçün başlıca şərt sürət deyil. Burada əsas məsələ avtomobili maşınların arası ilə (“sağ-sol”) məharətlə şütütməkdir. Onlar 180-360 dərəcə bucaq altında dönmək, səkilərə dəymədən “parkovkalamaq” vərdişinə yiyələnirlər. Bura həmçinin “drifinq” - sərt döngələri kəsmək də daxildir.

İkinci kateqoriyaya “speedenqlər” - sürətsevərlər daxildir. Yəni onlar mümkün qədər maşın az olan şosse tapıb, orada qazı axıra qədər sıxıb maksimal sürət yığırlar.

Üçüncü kateqoriyaya isə “draggerslər” aiddir. Onların əsas məqsədi 400 metrlik məsafədə sürəti 0-dan 170-180 dərəcə kilometrə çatdırmaqdır...

Əgər əvvəllər avtoxuliqanları “Vaz 21 - 07" markalı avtomobillərlə görürdüksə, son zamanlar bu maşınları ”niva"lar əvəz etməyə başlayıb. Şəhər küçələrində gənclər bu avtomobillərlə müxtəlif manevrlər edərək zövq alsalar da, bu, digər sürücülər üçün böyük təhlükə mənbəyidir.

Yaxşı, bəs qanunlar bu haqda nə deyir? Azərbaycan Respublikasının qanunvericiliyində avtoxuliqanlıqla bağlı cəzalar nəzərdə tutulmuşdur: Avtoxuliqanlıq, yəni nəqliyyat vasitəsinin sürücüsü tərəfindən ictimai qaydanı və əhalinin dincliyini nümayişkaranə şəkildə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, yol hərəkəti qaydalarının müxtəlif üsullarla davamlı olaraq, pozulması ilə müşayiət olunan qərəzli hərəkətlərə görə - nəqliyyat vasitələrini idarə etmək hüququ bir ilədək müddətə məhdudlaşdırılmaqla, 400 manatdan 600 manatadək cərimə edilir və ya nəqliyyat vasitələrinin idarə etmə hüququ bir ilədək müddətə məhdudlaşdırılmaqla, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, on günədək inzibati həbs tətbiq olunur. Eyni hərəkətlərin il ərzində inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə nəqliyyat vasitələrini idarə etmək hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılmaqla, 600 manatdan 800 manatadək cərimə edilir və ya nəqliyyat vasitələrinin idarəetmə hüququ bir ildən iki ilədək müddətə məhdudlaşdırılmaqla, işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, on beş günədək inzibati həbs tətbiq olunur.

❑ **Sevinc TELMANQIZI**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** ***(enurez)***
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**





# MTN “kitayski” telefon satanlara qarşı əməliyyat keçirib

**Milli Təhlükəsizlik Nazirliyinin (MTN) əməkdaşları “Neftçilər” metro stansiyası yaxınlığında yerləşən “Şiş Qala” Ticarət Mərkəzində əməliyyat keçirib. Redaksiyamıza daxil olan məlumata görə, əməliyyat zamanı 7 şəxs saxlanılaraq MTN-in Nizami Rayon Şöbəsinə aparılıb. Saxlanmanın səbəbi isə Ticarət Mərkəzində Çin istehsalı olan qeydiyyatsız telefonların satışı olub.**

Ticarət mərkəzindəki 3 mağazadan 200-ə yaxın belə telefon aşkar olunaraq müsadirə edilib. Mağazaları Ramin Təhməzovun icarəyə götürərək işlətdiyi bildirilir. Qeyd olunur ki, onunla bərabər saxlanılan şəxslər satıcılardır. “Kitayski” telefonların ölkə sərhədlərini aşaraq mağazaların piştaxtasına çıxması məsələsi isə açıq olaraq qalır.

❑ **E.HÜSEYNOV**


**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (15000 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-betondur.**
**Tel: (050) 614-40-24**

YENİ MÜSAVAT
N 215 (6243) 30 sentyabr 2015

# Nədən saçların... hənalanmış, arkadaş...

**Psixoloq Dəyanət Rzayev:** “Əslində əksər kişilərin ürəyində ağarmış saçlarına yenidən rəng qoymaq arzusu var, amma...”

**“O olmasın bu olsun” filmində Məşədi İbadın saqqalına həna (xına-red.) qoyması səhnəsini yəqin ki, çoxları izləyib. Hətta orada Məşədi İbadın işlətdiyi “heç hənanın yeridir” cümləsi indi də insanlar arasında zərb-məsəl kimi işlənir. Bu filmdən də göründüyü kimi, hələ o dövrdən qadınlarla yanaşı, kişilər də saçlarına, saqqallarına xına qoyurlarmış.**

Ancaq müəyyən vaxt keçdikdən sonra kişilərin saçına rəng və ya xına qoyması cəmiyyət tərəfindən birmənalı qarşılanmadı və bu hərəkət qınanıldı. Amma bəzi müğənni, aktyor kişilər saçlarına rəng, xına qoyurlar. Hətta siyasətçilər, sadə vətəndaşlar arasında da saçlarını rənglətdirən kişilər var. Sanki kişilər artıq saçlarına düşən ağ dənləri özlərinə kompleks edir və qocalıqdan qorxurlar.

**Psixoloq Dəyanət Rzayev** əslində əksər kişilərin ürəyində ağarmış saçlarına yenidən rəng qoymaq arzusunun olduğunu, ancaq cəmiyyətin qınağından qorxduğu üçün bunu etmədiyini bildirdi: “Dini nöqteyi-nəzərdən kişi saçına rəng qoya bilər. Əvvəllər kişilər saçına rəng qoymurdular. Çünki bunun kişiyə yaraşmayan bir hərəkət olduğunu düşünürdülər. Bu düşüncə də sırf azərbaycanlılara məxsusdur. Amma bir çox müsəlman ölkələrində bu normal sayılır. Son vaxtlar kişilər arasında saçına rəng qoymağın kütləvi hal almasında induksiya vəziyyəti var. Məsələn, bir nəfər bir hərəkəti edir, digərləri də ona baxıb təkrarlayır. Zaman keçdikcə müasirləşmə getdikcə ətrafın buna münasibətinin pis olmadığını gördülər. İnsan var ki, saçını rəngləmək ona yaraşır, adam da var ki, ona yaraşmır. Əslində hər bir insanın içində qocalma qorxusu var. Hətta dünyada bir sıra siyasətçilər bundan qorxuya düşərək üzlərini botoks da etdirirlər. Digər tərəfdən isə bu bir siyasətdir. Çünki siyasətdə yaşlı adama münasibət birmənalı olmur: deyirlər ki, bu adam artıq qocalıb, onda hansısa vəzifəni idarə edəcək güc, cavanlıq yoxdur. Məsələn, hazırda parlament seçkilərinə hazırlıq gedir. İndiki deputatlara baxsaq onların əksəriyyətinin qoca kişilər olduğunu görərik. Biz onlara televiziyada baxanda görürük ki, saçları ağ qoca kişilərdir. Amma xəbər portallarında şəkillərini yaymağa başlayanda 30 il əvvəlki cavanlıq şəkillərini qoyurlar. Üstəlik, onlar makiyaj da edirlər ki, üzləri təravətli, cavan görünsin. Əslində bu, bütün dünyada belədir. Rusiyada qubernator seçkilərində namizədə baxırsan ki, qoca kişidir, amma cavanlıq şəklini qoyub”.

**Psixoloq insanın xarici görünüşünün insanlara çox böyük təsiri olduğunu bildirdi:** “İnsanın xarici görünüşü siyasətdə çox rol oynayır. Diqqət edin, Amerikada son 100 ildə seçilmiş bütün prezidentlər rəqibindən boyca uzun və saçı daha çox olur. Psixoloqlar belə bir tədqiqat da aparıblar. Məsələn, iki nəfər universiteti bitirib və işə qəbul olunub. Bu iki nəfərdən birinin boyu hündürdür, digərinin isə qısa. Hansının boyu hündürdürsə, onun maaşı daha yüksək olur. Yaxud da tutaq ki, məhkəmə gedir və iki nəfər ayrı-ayrılıqda hansısa oxşar cinayəti törədib. Qanunla hər ikisinə eyni cəza düşür. Ancaq hansının boyu hündür, üzü qəşəng və cəlbedicidirsə, o adama mərhəmət hissi daha çox olur. Bəzən deyirlər ki, gözəllik baxanın gözlərindədir. Bu boş söhbətdir. Gözəlliyin də standartları var. Ona görə də insan həmişə daha qəşəng görsənmək istəyir. Ola bilər ki, insan saçına rəng, xına qoyur və düşünür ki, bir daha yaxşı görsənir. Əslində isə heç də həmişə yaxşı görsənmir və təlxəyə bənzəyir. Ümumiyyətlə, insanlar həmişə özlərini bir-birlərinə oxşatmağı sevir. Seçkiqabağı siyasətçilər də başlarına rəng qoyacaqlar ki, daha cavan görsənsinlər. Bu da normal bir istəkdir”.




❑ **Günel MANAFLI**

## Sensasion iddia: “Gizlədirlər, Məkkədə 4700-dək zəvvar ölüb”



**“4700-ə yaxın zəvvar Həcc ziyarəti zamanı həyatını itirib və təəssüflər olsun ki, dünya mediası qurbanların dəqiq sayını gizlədir”.**

Bu barədə Məkkədəki Mina vadisində sentyabrın 24-də baş verən faciə nəticəsində çoxsaylı zəvvarın ölümü ilə bağlı mətbuat konfransında çıxış edən İranın Azərbaycandakı səfirliyinin Mədəniyyət Mərkəzinin rəhbəri İbrahim İbrahimi bildirib.

O qeyd edib ki, bu məlumatlar İranın Səudiyyə Ərəbistanındakı mənbələrinə əsaslanır.

Onun sözlərinə görə, hazırda 278 iranlı zəvvar izdihamda həyatını itirib, 240 nəfər xəsarət alıb. İbrahimi deyib ki, faciə ilə bağlı İranda üç günlük matəm elan edilib.

“Həcc ziyarətinin təşkilatçıları olan Səudiyyə rəsmi nümayəndələri baş vermiş faciəyə görə məsuliyyət daşıyırlar. Bu ona gətirib çıxara bilər ki, gələcəkdə zəvvarlar öz həyatları üçün narahat olacaqlar” - o bildirib.

**İ.İbrahimi həlak olan zəvvarların kütləvi qəbirlərdə dəfn edilməsi ilə bağlı informasiyalara münasibət bildirərək, Səudiyyə Ərəbistanı hökumətini tənqid edib:** “Səudiyyə orqanları həlak olan zəvvarların ölkələrinə verilməsindən imtina edir. İran öz vətəndaşlarının Məkkədə dəfn edilməsinə icazə vermir və İran nümayəndələrinə Minada baş vermiş hadisənin araşdırılması məqsədilə Səudiyyə Ərəbistanına səfər etmək üçün vizaların verilməsini tələb edir”:

Həcc ziyarətinin təkcə Səudiyyə Ərəbistanı deyil, bütün müsəlman ölkələri tərəfindən təşkil olunması ilə bağlı təklifə toxunan mədəniyyət mərkəzinin direktoru bildirib ki, Ayətullah Əli Xameneyi də vətəndaşları Həcc ziyarətinə yollanan ölkələrin nümayəndələrinin Səudiyyə Ərəbistanında müqəddəs yerləri ziyarət edən zəvvarların təhlükəsizliyinin təmin olunması prosesində iştirak etmələrini təklif edib.

İ.İbrahimi Həcc ziyarəti zamanı azərbaycanlı zəvvarların ölümü ilə bağlı da başsağlığı verib (“Report”).

# Bakıya qaçan erməni ailəsi tez-tez şəhər gəzintisinə çıxır

**İnsan haqları müdafiəçisi Novella Cəfəroğlu erməni Vahan Martirosyanın son vəziyyəti ilə bağlı “Yeni Müsavat”a danışıb.**

Onun sözlərinə görə, Bakıya sığınan erməni ailəsi üçüncü ölkəyə getmək istəmir: “Məlum səbəblər üzündən onun barəsində geniş məlumat vermək iqtidarında deyilik. Çünki ona qarşı nəinki Ermənistan tərəfindən, hətta Rusiya və digər ölkələrdən belə təxribatlar ola bilər. Bu məsələləri nəzərə alaraq, onun haqqında mətbuatda tez-tez məlumat verilməsini doğru hesab etmirəm. Lakin onu deyə bilərəm ki, Martirosyan ailəsinin vəziyyəti normal durumdadır, heç bir narahatlıq yoxdur. Mən vaxtaşırı onlarla telefon əlaqəsi saxlayıb görüşürəm. Ailə tez-tez Bakının gəzintisinə çıxır.



Vahan Martirosyanın dediyinə görə, Azərbaycan onların çox xoşuna gəlib. Bu səbəbdən ölkəmizdən kənar heç bir yerə tərpənmək istəmir".

Xatırladaq ki, bugünlərdə Ermənistan “Milli Azadlıq Hərəkatı” təşkilatının rəhbəri Vahan Martirosyan Azərbaycandan siyasi sığınacaq istəyib. O, rəhbərlik etdiyi müxalifyönümlü qurumun fəaliyyətinə görə Ermənistanda dövlət orqanlarının və ayrı-ayrı səlahiyyətli şəxslərin təzyiqlərinə məruz qalıb, özünün və ailəsinin şəxsi təhlükəsizliyi ilə əlaqədar həyat yoldaşı, azyaşlı övladı ilə birlikdə Ermənistandan qaçaraq, Azərbaycana gəlib.



## Nazirliyin rəsmisi ərəblərin Hacıqabuldakı ovunu qanunsuz elan etdi

**18 milyardlıq sərvəti olan Dubay əmirinin varisi, bu yaxınlarda qardaşı dünyasını dəyişən Hamdan bin Məhəmməd bin Rəşid əl-Məktumun Hacıqabul rayonunun Qarasu kəndində quş ovlamasına Ekologiya Nazirliyinin rəsmisi münasibət bildirib. Nazirliyin 3 saylı ərazi ekologiya və təbii sərvətlər şöbəsinin rəisi Səxavət Əliyev sia.az-a deyib ki, xidməti ərazidə bəzən ərəb mənşəli şəxslərə rast gəlirlər.**

Rəisin sözlərindən belə aydın olur ki, ərəblərin əraziyə gələrək ovla məşğul olmaları üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyindən müvafiq icazələri yoxdur.

“Diplomatik pasport göstərdikləri üçün onlara qarşı tədbir görə bilmirik” -deyə S.Əliyev bildirib.

Qeyd edək ki, şahzadə və onunla birlikdə ölkəmizə gələnlər Hacıqabul rayonunun Qarasu kəndində məskən salıb. Qarasu kənd bələdiyyəsinin sədri Mirəyyub Babayev azvision.az-a açıqlamasında deyib ki, Məhəmməd bin Rəşid əl-Məktum bir həftə bundan öncə Hacıqabul rayonunda olub. Bələdiyyə sədri ərəblərin səfərlərinin dövlət səviyyəsində təşkil edilməsi ilə yanaşı özləri ilə quşlar gətirdiklərini də açıqlayıb.

Xatırladaq ki, bu il sentyabrın 19-da dünyasını dəyişən şahzadənin böyük qardaşı Rəşid bin Məhəmməd əl-Məktum bu ilin martında Hacıqabulda olaraq adı Qırmızı Kitaba düşmüş bəzgək quşlarını ovlamışdı və fotolarını çəkərək özünün facebook səhifəsində yaymışdı.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT

Son səhifə

N 215 (6243) 30 sentyabr 2015



# Marsda həyat olduğu təsdiqləndi

ABŞ Milli Aviasiya və Kosmik Agentliyi (NASA) ötən gün Mars planetinə də əhəmiyyətli elmi bir tapıntı barədə ictimaiyyətə açıqlama verəcəyini bildirmişdi. NASA, bütün dünyanın maraqla gözlədiyi şərhində Mars səthində su olduğunu və bu suyun maye halda olduğunu açıqlayıb. ABŞ-ın paytaxtı Vaşinqtondakı NASA mərkəzində ötən gün reallaşan tarixi mətbuat konfransında, Marsda dövri olaraq "axan su" haqda dəlillər olduğunu bildirib. NASA tərəfinin açıqlamasına görə, Marsı kəşf layihəsi çərçivəsində həyata keçirilən araşdırmalarda, orada maye, maye halda duzlu su olduğu məlumat verildi. Bu böyük kəşf Marsda həyatın ən əhəmiyyətli elementlərindən birinin olduğunu göstərir. Böyük kəşfdən sonra suyun mənbəyinin araşdırılması işlərinə başlanılacaq. O da qeyd olunub ki, Mars Yer qatından hündürlükdə olduğu üçün orada yalnız yosunlar yetişir. Marsda Yerdən daha əlverişli atmosfer var, ancaq genetika mühəndisləri ilə birlikdə bitkilərin dözümlülüyü artırılaraq bu problemlər aradan qaldırıla bilər. Marsda olan su ilə bitkilər sulana bilər. Maye haldakı suyun Marsın "yaz mövsümündə" planetin bəzi dağ divarlarından axdığı, NASA-nın çəkdiyi fotoşəkillərlə məlum olub. Yalnız o da qeyd olunub ki, suyun planetin payız mövsümündə - istiliklər düşəndə tədricən quruduğu müşahidə edilib. "Yer xaricində həyat varmı" sualına NASA rəsmiləri belə cavab verib: "Marsın səthindəki suyun varlığı, həyat üçün də böyük bir şans deməkdir, artıq araşdırmalarımızı bu istiqamətdə aparırıq".

# "Blutuz" beyinlər

Amerikanın Vaşinqton Universitetinin alimləri bir-birindən ayrı iki qrup arasında beyindən beyinə birbaşa əlaqə qurmağı bacarıb. Təcrübə bir-birindən təxminən 2 kilometr iki ayrı laboratoriyada qurulan qaranlıq otaqlarda 20 nəfərin iştirakı ilə keçirilib. Könüllülər hər axşam əşyaların adlarını bir-birilərinə göndərməyə çalışırlar. İki nəfər şəklində ayrılan beş qrup 20 sualı cavablayaraq əşyalar haqqında bir-birilərinə beyinləri ilə məlumat ötürməyə çalışıblar. İştirakçılardan biri kompüter ekranındakı şəkil haqqında başqalarına məlumat ötürüb. Uzaq laboratoriyadakı iştirakçılar da həmin əşyanın nə olduğunu kompüterdə göstəriblər. Təcrübəçilər əşyaların 72%-ni doğru təxmin ediblər.



# Evdə diş ağartmağın yolları

Gülümsədiyinizdə dişlərinizin kifayət qədər parlaq görünmədiyindən narahat olub, ağzınızı bağlamağa çalışmaq yerinə, praktik üsullarla dişlərinizi ağartmağı sınaya bilərsiniz.

**Soda:** Bilinən ən məşhur təbii diş ağartma materialıdır. Dişlərin ağardılması ilə yanaşı ağızdakı bakteriyaları və digər mikroorqanizmləri öldürür, ağızdakı val təbəqəsini (diş daşı) təmizləyər.

**Süfrə duzu:** Karbonat qədər güclü olmasa da, süfrə duzu da bilinən diş ağardıcıları arasındadır. Ağızdakı bəzi mikroorqanizmləri öldürür. Antibakterial xüsusiyyətləri olsa da bütün bakteriyaları təmizləmir. Diş əti iltihabındakı şişi azaltmağa təsiri vardır.

**Qliserin:** Qliserinin çox bilinməyən antibakterial təsiri vardır. Bakteriyaların olduğu bir yerə bir damcı qliserin töküldüyü zaman mühitdəki bütün mikroorqanizmlərin fəaliyyətini dayandırdığı bildirilir.






# Ölmüş sevgilisi ilə nişanlandı

İngiltərədə evində ölü olaraq tapılan 18 yaşlı gənc qızın sevgilisi onun barmağına nişan üzüyü taxaraq hər kəsi şoka salıb. İngiltərənin Sheffield şəhərində universitetdə dərsə başladıqdan iki həftə sonra ölü tapılan Abigail Hall ölümü ilə bütün onu tanıyanları sarsıdıb. Pis xəbəri alan Abigailin sevgilisi Tomson evə qayıdıb və sevgilisinin ailəsinə qızları ilə nişanlanmaq istədiyini deyib. Daha sonra isə ölmüş sevgilisinə üzük taxarkən çəkilmiş şəklini sosial mediada paylaşıb və "Abigail ilə artıq nişanlıyıq. O mənim evimdir" deyə status yazıb. Tomson üzüyü bir neçə gün əvvəl alıb.




**QOÇ** - Görüşə çıxmaq, yeni işlərə başlamaq, sövdələşmələrdə iştirak etmək üçün səmərəli vaxtdır. Çalışın ki, ürəyinizin səsinə qulaq asasınız. Ağır fiziki işlərdən uzaq olmağa cəhd edin.

**BUĞA** - İxtiyarınızda olan bu təqvimdə müəyyən gərginliklərlə baş-başa qala bilərsiniz. Odur ki, həmin ərəfədə bütün vacib planlarınızı təxirə salmalısınız. Fəaliyyətdə öz məsuliyyətinizi anlayın.

**ƏKİZLƏR** - Saat 15-ə qədər nəzərdə tutduğunuz planların bir çoxunu reallaşdıracaqsınız. Bunun üçün ilk növbədə ədalət prinsiplərinə söykənməlisiniz. Nahardan sonra səfərə çıxmağa dəyər.

**XƏRÇƏNG** - Astroloji göstəricilər səhhətinizdə problemlərin olacağını göstərir. Hər addımda ehtiyatlı olun. Əlalxüsus da qida və yuxu rejiminə ciddi riayət edin. Borc almağa girişməyin.

**ŞİR** - Kifayət qədər məhsuldar gündür. Kiminsə işlərinizə mane olacağını ağlınıza gətirməyin. Əksinə, nəzərdə tutduğunuz planların böyük əksəriyyəti öz həllinə yaxınlaşacaq.

**QIZ** - Yaxşı olar ki, fəaliyyətə ara verib daha çox istirahətlə məşğul olasınız. Bunu etməsəniz ümumi yorğunluğunuz və daxili süstlüyünüz səngiməyəcək. Qonaq getmək olar.

**TƏRƏZİ** - Məhəbbət aləmində romantik məqamlar yaşamaq istəyirsinizsə, bu təqvimdən maksimum yararlanın. Əmin olun ki, cəhdləriniz boşa çıxmayacaq. Riskli sövdələşmələrdən yayının.

**ƏQRƏB** - Bu gün hansısa fəaliyyətinizin səmərə verəcəyi inandırıcı görünmür. Lakin buna görə ruhdan düşməyinizə əsas yoxdur. Əksinə, sövdələşmələrə başlamaq və gəlir əldə etmək üçün uğurludur.

**OXATAN** - Planetlərin bürcünüzdəki neqativ quruluşu sağlıq durumunuzda mənfi fəsadlar əmələ gətirə bilər. Buna baxmayaraq, fəaliyyətdə uğurlarınız gözlənilir. Oturaq işləri məhdudlaşdırın.

**OĞLAQ** - Mübahisəli gün olsa da, Göy qübbəsi maliyyə durumunuzda irəliləyiş olacağını bildirir. Bir şərtlə ki, kisənizdən etibarsız insanlara borc verməyəsiniz. Yoxsa müflisləşəcəksiniz.

**SUTÖKƏN** - Günün birinci yarısında bütün işlərinizi yekunlaşdırmağa çalışın. Çünki sonrakı müddətdə buna imkan tapmayacaqsınız. Ulduzlar nahardan sonra maraqlı görüşlərdən xəbər verir.

**BALIQLAR** - Bəzi bürclərdə olduğu kimi sizin də səhhətlə bağlı problemləriniz mümkündür. Bunun qarşısını almaq üçün ilk növbədə əsəblərinizi qorumalısınız. Nahardan sonra sürpriz gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Xərçənglə mübarizədə aspirin



Davamlı olaraq aspirin istifadə edən bağırsaq və mədə xərçəngi xəstələrinin yaşama şansının istifadə etməyənlərlə müqayisədə iki dəfə çox olduğu məlum olub. Hollandiyada 14 min xəstə üzərində aparılan 4 illik araşdırmanın nəticələri Leiden Universitetində açıqlanıb. Professor Peter Naredi asprinin bağırsaq xərçənginə qarşı çox təsirli olduğunu deyib. Yenə də bu dərmanın davamlı istifadəsinə ehtiyac olub-olmadığını öyrənmək üçün araşdırmaları davam etdirəcək.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300